RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 271 (9726) 8 dekabr 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Ədalət bu dəfə də zəfər çalacaq



## Xalqımızın doğma yurdundan zorla qovulmasına beynəlxalq hüquqi qiymət verilməlidir

Azərbaycan torpaqlarının ermənilər tərəfindən 30 ilə yaxın müddətdə işğal altında saxlanılması ötən əsrin müxtəlif mərhələlərində xalqımızın tarixən türk yurdu olan müasir Ermənistan ərazisindən zorakı yollarla sıxışdırılması prosesinin davamı olmuşdur. XIX əsrin əvvəllərindən etibarən ermənilərin bir toplum olaraq bu torpaqlara köçürülməsi ilə tarixi Azərbaycan ərazilərinə iddiaları Rusiya imperiyası və keçmiş SSRİ dövründə daha məqsədyönlü və aqressiv xarakter almışdır. Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda keçirilən "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II beynəlxalq konfransın iştirakçılarına ünvanladığı məktubda deyildiyi kimi, "Azərbaycan xalqı ötən əsrin əvvəllərindən başlayaraq köçkünlük problemi ilə üzləşmişdir. Qərbi Azərbaycanda - indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar etnik təmizləməyə məruz qalaraq, tarixi vətənlərindən mərhələli şəkildə zorla çıxarılmışlar. 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə daha dəhşətli xarakter almış köçürmələr nəticəsində yüz minlərlə azərbaycanlı dədə-baba yurdunu tərk edərək Azərbaycana sığınmışdır. Bu dəhşətli deportasiyalardan sonra Ermənistanda bir nəfər belə azərbaycanlı qalmamış və Ermənistan monoetnik dövlətə çevrilmişdir".

2020-ci ilin Vətən müharibəsində qazandığımız parlaq hərbi qələbə və ötən ilin sentyabr ayında keçirilən ildırımsürətli antiterror əməliyyatı nəticəsində Qarabağ və Şərqi Zəngəzurda on illər ərzində kök salmış etnik bölücü və aqressiv hərbi xuntanın fəaliyyətinə son qoyulmuşdur. Müstəqillik dövrümüzdə ilk dəfə olaraq sərhədlərimiz və suverenliyimiz bərpa olunmuşdur. Bu tarixi qələbə və ədalətin bərpası xalqımızın qarşısında duran növbəti çağırışın gerçəkləşdirilməsi üçün siyasi və diplomatik səylərin intensivləşdirilməsinə münbit şərait yaratmışdır. Əgər dünya birliyi Cənubi Qafqaz bölgəsində Azərbaycanla Ermənistanın sabit sülh şəraitində mövcudluğunu arzulayırsa və bu istiqamətdə cəhd göstərmək istəyirsə, azərbaycanlıların tarixi yurdlarından zorla köçürülməsi faktını diqqətdən kənarda saxlamamalıdır.

→ 4

## Milli Məclisdə "Parlamentarizm: ənənələr və perspektivlər" mövzusunda Beynəlxalq Parlament Konfransı keçirilib

**Dekabrın 7-də Milli Məclisdə "Parlamentarizm: ənənələr və perspektivlər" mövzusunda Beynəlxalq Parlament Konfransı keçirilib. Konfransda 13 ölkənin parlamentindən və beynəlxalq təşkilatlardan 100-ə yaxın nümayəndə iştirak edib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, tədbiri giriş nitqi ilə açan Milli Məclisin Sədri Sahibə Qafarova dost və qardaş ölkələrin parlamentlərinin təmsilçilərini salamlayaraq deyib ki, konfransın mövzusu olduqca aktualdır. O qeyd edib ki, ölkələrimizin siyasi həyatında parlamentlərin oynadığı rol danılmazdır. Belə ki, onlar qanunvericilik hakimiyyəti funksiyasını yerinə yetirməklə, dövlətin idarə olunmasında fəal iştirak edirlər.

Spiker parlamentlərin rolunun daha da gücləndirilməsi, əməkdaşlığın və birgə fəaliyyətin genişləndirilməsi məsələlərinə həsr olunmuş bu konfrans çərçivəsində aparılacaq müzakirələrin faydalı olacağına inamını ifadə edib.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, parlamentlərimizin bugünkü fəaliyyətinə ölkələrimizdə uzun illər ərzində formalaşmış parlamentarizm ənənələrinin və təcrübələrinin təsiri olduqca böyükdür. Azərbaycanda mövcud olan parlamentarizm ənənələrindən danışan Sahibə Qafarova 1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin parlamentinin fəaliyyətini xüsusi qeyd edib.

O vurğulayıb ki, konfransın məhz bu gün keçirilməsi heç də təsadüfi deyil. Belə ki, Azərbaycan parlamentinin ilk iclası 106 il öncə, məhz dekabrın 7-də keçirilib.

Spiker bildirib ki, bütün müsəlman Şərqində o dövrün ən mütərəqqi, demokratik prinsipləri əsasında formalaşdırılmış ilk qanunverici orqan olan Azərbaycan Parlamenti öz fəaliyyəti dövründə milli dövlətçiliyin və müstəqilliyin möhkəmləndirilməsi, siyasi, iqtisadi, mədəni, elmi və digər sahələrdə hüquqi bazasının yaradılması istiqamətində mühüm addımlar atmışdı.

Cəmi on yeddi ay fəaliyyət göstərsə də, 11 müxtəlif partiyanın təmsil olunduğu, 99 üzvü olan parlament həmin dövr ərzində 145 iclas keçirib, 270-dən artıq qanun layihəsini müzakirəyə çıxarıb, 230-a yaxın qanun qəbul edib. 1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyətinin süquta uğraması ilə parlament də öz fəaliyyətini dayandırıb.

Sahibə Qafarova qeyd edib ki, Azərbaycanda sovet hakimiyyəti illərində parlament məhdud səlahiyyətlərə malik idi. Bununla belə, formal xarakter daşımasına baxmayaraq, parlamentin həmin dövrdəki fəaliyyəti parlamentarizm ənənələrinin qorunub saxlanması baxımından faydalı olub.

→ 2

## Müstəqil siyasətin uğurları

### Ölkəmiz yeni yüksəliş dövrünə qədəm qoyub

Prezident İlham Əliyevin 21 illik hakimiyyəti dövründə xalqımızın tarixində ən qüdrətli Azərbaycan formalaşıb. Bu günlər xalqımız tarixinin ən şanlı və şərəfli dövrünü yaşayır. Azərbaycan heç vaxt indiki qədər güclü və qüdrətli olmayıb. Dövlət başçısı yüksək idarəçiliyi, həyata keçirdiyi uğurlu və çevik siyasəti ilə respublikamızı dünyanın inkişaf etmiş böyük nüfuza malik olan ölkələri sırasına çıxarıb. Prezidentin həm daxili, həm də xarici siyasətinin mərkəzində Azərbaycan xalqı, onun əmin-amanlığı dayanır. Azərbaycan Prezidentinin başlıca amalı və məqsədi daim qurub-yaratmaq, dövlətçiliyimizi möhkəmləndirmək və xalqımızı xoş günə, firavan həyata qovuşdurmaqdır. Həyata keçirilən uğurlu islahatlar nəticəsində bütün sahələrdə sürətli inkişafa nail olunub, nailiyyətlər qazanılıb. Bu, insanların rifah halını, sosial vəziyyətini daha da yaxşılaşdırıb.

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın beynəlxalq nüfuzu getdikcə artır, ölkəmiz dünyada söz sahibinə çevrilir. Buna görə də regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Qürurla deyə bilərik ki, dövlət başçımız daim xalqımızı sevindirən layihələrə imza atır. Bunu Azərbaycanın iqtisadiyyatında, elmində, təhsilində, səhiyyəsində və başqa sahələrdə çalışan vətəndaşlarımız öz həyatlarında aydın şəkildə hiss edirlər.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi, hərbi sərkərdəlik qabiliyyəti sayəsində Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm Zəfər dövlətimizin gücünü, qüdrətini dünyaya bir daha göstərdi. Qısa müddət ərzində düşmən üzərində qazanılmış bu Zəfər nəinki ərazilərimizin 30 illik işğalına son qoydu, həm də son 100 ildə xalqımıza qarşı törədilən etnik təmizləmə, deportasiya və soyqırımı siyasətini birdəfəlik dayandırdı.

→ 4

◆ Demoqrafiya

## Rəqəmlər nədən xəbər verir

Prezident İlham Əliyev "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" deyir. Bu sözlərin arxasında Azərbaycan xalqının gündən-günə yüksələn rifah halını, dövlətin öz vətəndaşına sonsuz qayğısını ifadə edən böyük bir həqiqət dayanır. Bu həqiqəti bir çox fakt təsdiqləyir ki, onlardan biri də məhz ölüm hallarının azalmasıdır. Ötən müəyyən dövr ərzində koronavirus pandemiyası və erməni cəlladlarının cinayətləri nəticəsində yarımçıq qırılan ömürləri istisna etməklə, son illər ölkədə, ümumiyyətlə, ölümün səviyyəsi aşağı düşür, yaxud sabit qalır. Bunun səbəblərindən biri, əlbəttə ki, insanın gün-güzəranının yaxşılaşmasıdır. Bu mənada əhalinin gəlirlərinin çoxalması, əməkhaqqının getdikcə yüksəlməsi, pensiya və müavinətlərin artması böyük rol oynayır.



Azərbaycan vətəndaşının sağlamlığının qorunması dövlətin qarşıya qoyduğu ən mühüm vəzifələrdən biridir. Təsadüfi deyil ki, son illər əhaliyə göstərilən tibbi xidmətin səviyyəsi xeyli yüksəlib, müayinələrin sayı artıb, xəstələrin dərmanla təchizatı əhəmiyyətli dərəcədə yaxşılaşıb. Dövlət büdcəsində səhiyyənin inkişafına ayrılan vəsaitin məbləği ilbəil artır.

→ 6

## Makron Fransanı fəlakətə sürükləyir



Fransanın yarıtmaz 25-ci prezidentinin nə düşündüyündən asılı olmayaraq, reallıqlar başqa şey deyir. Artıq Fransada vəziyyətin gündən-günə ağırlaşdığını bütün dünya görür və bu gerçəyi Makron hökuməti daha örtbasdır edə bilmir. Amma bununla məşğul olmaq əvəzinə bir əli Ermənistanı silahlandıraraq Cənubi Qafqazda müharibə ocağı qalamaq istəyən Makron, digər əli ilə Fransanın müstəmləkəsi altında inləyən xalqların azadlıq səslərini boğmağa çalışır. Makron hakimiyyətinin müstəmləkə siyasətinə qarşı mübarizə apararaq haqq səslərini ucaldanlara qarşı isə zor tətbiq edilir, qan tökməkdən belə çəkinilmir.

Kolonializm siyasətini günümüzdə də davam etdirməsindən utanmayan Makron hökuməti törətdiyi vəhşiliklərə görə üzr istəmək əvəzinə digər ölkələrdə uydurma etnik təmizləmələrdən danışır.

Azərbaycan bütün beynəlxalq platformalarda kolonializmə qarşı aktiv mübarizə aparır, XXI əsrdə də müstəmləkəçi siyasət yürüdən Fransanı ifşa edir. Müstəmləkə altında olan ölkələrin nümayəndələri Bakı Təşəbbüs Qrupu (BTQ) ətrafında birləşərək azadlıq səslərini dünyaya çatdırırlar.

→ 6

## Aİ-də ən aşağı doğum səviyyəsi qeydə alınıb

2023-cü ildə Aİ-də doğum nisbəti "Eurostat"ın uzunmüddətli demoqrafik proqnozlarında hədəflənmiş 4 milyonluq gözləntidən xeyli az olaraq, son 10 ilin ən aşağı göstəricisidir.

Mütəxəssislər azalmanın iqlim dəyişikliyi ilə bağlı narahatlıqlar, pandemiya və son illərdə inflyasiyanın ən yüksək artımı kimi amillərlə bağlı ola biləcəyini irəli sürürlər. BMT-nin əhali üzrə məsul əməkdaşı Quanyuy Çjanın dediyinə görə, Aİ sakinlərinin uşaq sahibi olub-olmamaq qərarlarına gələcəklə bağlı qeyri-müəyyənlik, yaşayış və mənzil qiymətlərinin artması, həmçinin bir çox qlobal böhran, o cümlədən koronavirus pandemiyası, geosiyasi gərginliklər və iqlim dəyişikliyi təsir edə bilər.

Təşkilatın məlumatına görə, Avropanın bir sıra ölkələrində 2023-cü və 2024-cü illərdə hər 1000 nəfərə düşən doğum səviyyəsi ən aşağı olub. 2024-cü ildə ən aşağı orta doğum səviyyəsi 1000 nəfərə 6,5 doğuşla İtaliyada, ən yüksək göstərici isə 10,5 ilə Kiprdə qeydə alınıb.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) xəbərdarlıq edir ki, ölkələr öz siyasətlərini yeni "aşağı məhsuldar gələcəyə" uyğunlaşdırmalıdırlar.

İƏİT təmsilçilərinin fikrincə, miqrasiya və inteqrasiyaya proaktiv yanaşma, habelə təmsil olunmayan qrupların məşğulluğa çıxış imkanlarının yaxşılaşdırılması bu problemin həllinə kömək edəcək.

→ 6



## Azərbaycan Prezidenti: "İndi dünyada bütün insanlar görürlər ki, beynəlxalq hüquq anlayışı tamamilə sarsılıb"

### "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 140-cı kitabı çapdan çıxıb




**"Birnömrəli vəzifə hərbi gücümüzün artırılmasıdır. Baxmayaraq ki, İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı arxada qaldı, həm dünyada gedən proseslər, yeni münaqişə, müharibə ocaqlarının yaradılması və ətrafımızda gərginliyin artması, həm də eyni zamanda Ermənistanda revanşizm meyilləri bizi bu sahəyə daim diqqət göstərməyə vadar edir. Hərbi gücümüz olmasa, biz heç bir müstəvidə - nə iqtisadi, nə siyasi müstəvidə uğur qazana bilmərik. Hesab edirəm ki, müstəqil Azərbaycanın tarixi, o cümlədən 30 illik işğal bunu əyani şəkildə göstərir. Bizim hərbi imkanımız, gücümüz olmasaydı, heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. İndi dünyada nəinki siyasətlə məşğul olanlar, hesab edirəm ki, bütün insanlar görürlər ki, beynəlxalq hüquq anlayışı tamamilə sarsılıb. İkinci Dünya müharibəsindən sonra formalaşmış təhlükəsizlik arxitekturası artıq mövcud deyil, "Kim güclüdür, o da haqlıdır" prinsipi üstünlük təşkil edir və bəzi böyük dövlətlər bunu heç gizlətmirlər".**

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin çapdan yeni çıxmış 140-cı kitabında yer alan bu fikirləri dövlət başçısı sentyabrın 23-də Yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında nitqi zamanı söyləyib. Oxucu Azərbaycan Prezidentinin nitqinin tam mətni ilə bu kitabda tanış ola bilər.

Çoxcildliyin 140-cı kitabında toplanmış materiallar 2024-cü ilin sentyabr-oktyabr aylarını əhatə edir.

Yeni kitaba Prezident İlham Əliyevin "Bakı-Ekspo" Mərkəzində keçirilmiş ADEX-2024 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi və "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisində iştirakına dair informasiya daxil edilib. Oxucu bu kitabda dövlət başçısının iqtisadi məsələlərə həsr olunmuş müşavirədə, habelə Aşıq Ələsgərin abidəsinin açılış mərasimində çıxışlarının mətnləri ilə də tanış ola bilər.

Prezident İlham Əliyev sentyabr ayında Ağdam rayonuna, Xankəndi və Şuşaya səfər edib, aparılan bərpa-quruculuq işləri ilə tanış olub, bir sıra müəssisələrin açılışında iştirak edib, eyni zamanda yeni müəssisələrin təməlini qoyub. Dövlət başçısı Xankəndi şəhərində Qarabağ Universitetinin tələbə yataqxanasının və bu universitetin təmirdən sonra açılış mərasimlərində iştirak edib, müəllim və tələbə heyəti ilə görüşüb. Şuşada isə dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin ev-muzeyinin bərpadan sonra açılışında, Şuşada Bayraq meydanının açılış mərasimində iştirak edib. Prezident oktyabr ayında isə Zəngilana və Cəbrayıla səfər edib. Dövlət başçısı Cəbrayılda yaşayış kompleksinin açılış mərasimində iştirak edib və yeni evlərə köçən şəhər sakinlərinə mənzillərin açarlarını təqdim edib. Bütün bunlar haqqında informasiyalar yeni kitabda verilib.

Çoxcildliyin 140-cı kitabında Prezident İlham Əliyevin Moskvada MDB Dövlət Başçıları Şurasının iclasında iştirakına və çıxışına, "Rossiya-1" televiziya kanalına müsahibəsinə, habelə XVI BRICS Sammitinin "Outreach" / "BRICS+" formatında iştirak etmək üçün Rusiya Federasiyasının Tatarıstan Respublikasına səfərinə və plenar iclasda çıxışına dair materiallar da toplanıb.

Oxucu bu kitabda Azərbaycan Prezidentinin Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumunun iştirakçılarına, "İqlim dəyişikliyi və insan hüquqları: ombudsmanların və milli insan hüquqları təşkilatlarının rolu" mövzusunda Beynəlxalq Bakı Forumunun, Pre-COP29 tədbirinin və Azərbaycanda keçirilən digər beynəlxalq tədbirlərin iştirakçılarına müraciətlərinin mətnləri ilə də tanış ola bilər.

"Azərnəşr" tərəfindən buraxılan 140-cı kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Milli Məclisdə "Parlamentarizm: ənənələr və perspektivlər" mövzusunda Beynəlxalq Parlament Konfransı keçirilib

*Əvvəli 1-ci səh.*







Azərbaycanın 1991-ci ildə müstəqilliyini bərpa etməsinin parlamentimizin tarixində yeni dövrün başlanması ilə yadda qaldığını deyən spiker Sahibə Qafarova qeyd edib ki, həmin dövrün ilk illəri olduqca mürəkkəb şəraitdə keçirdi. Ermənistanın Azərbaycana qarşı işğalçılıq fəaliyyətinin genişlənməsi, siyasi, iqtisadi və sosial çöküş, hakimiyyətdaxili çəkişmələr səbəbindən ölkənin parçalanmaq həddinə çatması parlamentin işində də özünü açıq büruzə verirdi.

Məhz belə bir məqamda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1993-cü ilin iyununda hakimiyyətə qayıdışı nəinki dövlət müstəqilliyinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün həlledici məqam oldu, həm də mahiyyət etibarilə yeni parlament institutunun formalaşdırılması baxımından həyati əhəmiyyət kəsb etdi.

Heydər Əliyevin böyük siyasətə qayıdışı məhz parlamentdə başladı. Ulu Öndər parlamentə rəhbərlik etdiyi dörd aya yaxın müddət ərzində Azərbaycan parlamentarizmi tarixinin keyfiyyətcə yeni mərhələsinin əsasını qoydu.

Onun həm bu müddətdə, həm də sonradan prezidentlik dövründə qəbul etdiyi qərarlar, irəli sürdüyü təşəbbüslər müstəqil dövlətimizin hüquqi bazasının yaradılıb inkişaf etdirilməsində, parlamentin real hakimiyyət orqanına çevrilməsində əvəzsiz rol oynadı.

Milli Məclisin Sədri bildirib ki, Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycanın memarı və qurucusu olduğu kimi, müasir parlamentimizin də banisidir. Və bu parlament öz fəaliyyətində ötən dövrlərdə formalaşmış ənənələrə əsaslanır, müstəqillik və dövlətçilik amallarını təcəssüm etdirir.

Bu gün Milli Məclis Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə böyük uğurlar və qələbələr qazandıran milli inkişaf strategiyasının həyata keçirilməsi prosesinə öz qanunvericilik fəaliyyəti ilə töhfə verir.

Spiker diqqətə çatdırıb ki, ölkələrimizin və xalqlarımızın mənafelərinin təmin olunması işi parlamentlərin rolunun, onların qanunvericilik və təmsilçilik funksiyalarının daha da gücləndirilməsini labüd edir. Bu çərçivədə parlamentlər arasında ortaq maraqlara əsaslanan əməkdaşlıq məsələləri keyfiyyətcə yeni xarakter alır. Bu mənada, son dövrlərin mühüm təzahürlərindən biri olan parlament diplomatiyası xüsusilə diqqəti cəlb edir.

Həqiqətən də, parlamentarizmin hazırkı inkişaf mərhələsinin əsas məqamlarından biri də budur ki, ölkədaxili siyasi sistemin əsas sütunlarından olan parlamentlərin fəaliyyəti artıq milli sərhədlərlə kifayətlənmir. Bu fəaliyyət həm də regional və qlobal müstəviyə çıxır.

Spiker bildirib ki, müəyyən etdiyimiz hədəflərə çatmaq üçün parlament diplomatiyası ikitərəfli və çoxtərəfli əsasda qarşılıqlı faydalı əməkdaşlıqlar, səmərəli dialoq, ən yaxşı təcrübələrin paylaşılması, üzləşdiyimiz çağırışlar qarşısında səylərin birləşdirilməsi kimi böyük imkanlara malikdir. Bütün bunlar parlament diplomatiyasının mühüm cəhətləridir.

Lakin təəssüf ki, bu gün bir sıra ölkələrdə parlamentlər hansısa siyasi maraqlardan asılı vəziyyətə düşərək, təzyiq, şantaj, böhtan və ikili standartlar alətinə çevrilirlər.

Milli Məclisin Sədri qeyd edib ki, konfrans iştirakçıları Azərbaycanın Qarabağ bölgəsini - Füzuli, Şuşa, Xankəndi və Xocalı şəhərlərini ziyarət edəcəklər. Səfər çərçivəsində qonaqlar Azərbaycan torpaqlarının 30 illik işğalının ağır nəticələrinin, Ermənistan tərəfindən işğal dövründə törədilmiş vəhşiliklərin, yerlə yeksan edilmiş şəhər və kəndlərin, dağıdılmış tarixi, mədəni və dini abidələrin canlı şahidi olacaqlar. Lakin qonaqlar eyni zamanda Prezident İlham Əliyevin rəhbərliyi və böyük səyləri ilə həyata keçirilən irimiqyaslı abadlıq-quruculuq işləri ilə tanış olacaqlar.

Spiker qeyd edib ki, 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında anti-terror tədbirləri 30 illik işğala və haqsızlığa son qoydu, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini təmin etdi. Eyni zamanda məhz ölkəmizin təşəbbüsü ilə Cənubi Qafqazda uzunmüddətli sülhün və sabitliyin yaradılması imkanlarına da yol açıldı.

Bütün bu proseslər fonunda isə bir sıra Qərb ölkələri və onların parlamentləri, AŞPA və Avropa Parlamenti kimi qurumlar Azərbaycana qarşı yalan ittihamlar üzərində qurulmuş böhtan və dezinformasiya kampaniyaları aparır, ölkəmizin daxili işlərinə müdaxilə edirlər. Bunun yeganə səbəbi isə Azərbaycanın kimlərinsə diktəsini rədd edərək, öz torpaqlarını işğaldan azad etməsi və milli maraqlara əsaslanan müstəqil siyasət həyata keçirməsidir. Bu tip təxribatlar BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Bakıda keçirilmiş 29-cu sessiyası dövründə özünü aşkar şəkildə büruzə verdi. Azərbaycanın iqlim dəyişmələri kimi qlobal problemlə mübarizədə bütün dünyanın səylərini birləşdirməyə çalışdığı bir dövrdə, öz dar siyasi maraqlarını güdən dairələr bu qlobal tədbiri boykot çağırışı edir, ölkəmizə qarşı absurd iddialar səsləndirirdilər. Lakin onların bu təxribatları nəticəsiz qaldı. COP29 ən yüksək səviyyədə keçirildi və əhəmiyyətli nəticələrin əldə olunması ilə başa çatdı. COP29 çərçivəsində Parlament Toplantısı təşkil etməklə bizlər də bu mühüm prosesə öz töhfəmizi verdik.

Milli Məclisin Sədri çıxışının sonunda diqqətə çatdırıb ki, təəssüf ki, əsassız təzyiqlər, ikili standartlar, daxili işlərə müdaxilələr müasir dövrdə ölkələrimizin tez-tez qarşılaşdığı neqativ hallardır. Bu isə öz növbəsində qarşılıqlı dəstək və birgə fəaliyyətin vacibliyini bir daha ön plana çıxarır. Biz parlament diplomatiyasının bütün mövcud imkanlarından faydalanmaqla, konstruktiv dialoq və əməkdaşlığı rəhbər tutmaqla qarşıya qoyduğumuz hədəflərə nail ola bilərik.

Sonra konfransda Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri Fuat Oktay çıxış edərək, Azərbaycan Parlamentinin 106-cı ildönümü münasibətilə öz təbriklərini və xoş arzularını çatdırıb, bu tədbirdə iştirakından məmnun olduğunu söyləyib. O, Azərbaycan parlamentinin öz fəaliyyətini demokratik prinsiplər əsasında qurduğunu qeyd edib. Eyni dilə, dinə, mədəniyyətə mənsub Türkiyə ilə Azərbaycan arasında möhkəm dostluq və qardaşlıq əlaqələrinin olduğunu, iqtisadi, ticarət və digər sahələrdə əməkdaşlığın dinamik inkişaf etdiyini bildirib. Türkiyənin hər zaman, o cümlədən 44 günlük Vətən müharibəsində Azərbaycanı dəstəklədiyini, ölkələrimiz arasında müttəfiqlik münasibətlərinə dair imzalanmış Şuşa Bəyannaməsinin vacibliyini vurğulayıb. Fuat Oktay dövlətlərarası münasibətlərin möhkəmlənməsinə öz töhfəsini verən Türkiyə Böyük Millət Məclisi ilə Azərbaycan Milli Məclisi arasında əlaqələrin genişləndirildiyini, deputatlarımızın həm ikitərəfli qaydada, həm də beynəlxalq platformalarda qarşılıqlı faydalı əməkdaşlıq etdiyini bildirib. O, dövlətlərimiz, parlamentlərimiz və xalqlarımız arasında qardaşlıq münasibətlərinin daim mövcud olacağına əminliyini söyləyib.

Türkiyə Böyük Millət Məclisinin Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım çıxışında Azərbaycan parlamentinin tarixi günü ilə bağlı xoş arzularını söyləyib, müsəlman Şərqinin ilk demokratik respublikasının parlamentinin mühüm işlər gördüyünü deyib. O, Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu qeyd edərək, ölkəmizin Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdiyini məmnunluqla vurğulayıb. Şamil Ayrım Azərbaycanın regionda və dünyada rolunun artdığını vurğulayaraq, ölkəmizin bir çox beynəlxalq tədbirə uğurla evsahibliyi etdiyini, o cümlədən bu yaxınlarda yüksək səviyyədə təşkil olunmuş COP29 konfransının qlobal iqlim dəyişikliyi ilə mübarizəyə mühüm töhfələr verdiyini qeyd edib.

TBMM-in Azərbaycanla dostluq qrupunun rəhbəri Qərbi Azərbaycana qayıdış məsələsinə toxunaraq bildirib ki, vaxtilə öz yurdlarından didərgin düşmüş azərbaycanlılar beynəlxalq hüquq normalarına uyğun olaraq evlərinə qayıtmalıdırlar.

Parlamentlərimiz arasında münasibətlərin gücləndiyini deyən Şamil Ayrım Azərbaycan parlamentarizminin inkişafında Ümummilli Lider Heydər Əliyevin müstəsna rolunu vurğulayıb. O, parlament dostluq qrupları çərçivəsində əlaqələrin təqdirəlayiq olduğunu deyib, parlament komitələri arasında qanunvericilik sahəsində təcrübə mübadiləsi baxımından əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətindən söz açıb.

Tədbirdə Milli Məclisin Türkiyə ilə parlamentlərarası işçi qrupunun rəhbəri, Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, İntizam komissiyasının sədri Eldar İbrahimov, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Qüdrət Həsənquliyev, deputatlar Fəzail İbrahimli, Tənzilə Rüstəmxanlı, Əziz Ələkbərov çıxış ediblər.

Millət vəkilləri bildiriblər ki, müsəlman Şərqində ilk demokratik, hüquqi və dünyəvi dövlətin Azərbaycanda elan edilməsi ilə, həm də ölkəmizin tarixində parlamentarizmin əsası qoyuldu. Həmin vaxt formalaşmış parlamentdə qəbul edilmiş qanun və qərarlar dövlət quruculuğu, siyasət, iqtisadi inkişaf, mədəniyyət və həyatın digər sahələrini əhatə edib. Xalq Cümhuriyyəti dövründə ilk dəfə qadınlara səsvermə hüququ verilib. Bu baxımdan Azərbaycan parlamentinin öz yeri, rolu və ənənələri vardır.

Diqqətə çatdırılıb ki, Ulu Öndər Heydər Əliyevin Milli Məclisə rəhbərliyi dövründə onun ölkəmizdə parlamentarizm ənənələrinin formalaşmasında və parlament mədəniyyətinin təkmilləşdirilməsində misilsiz xidmətləri olub. Azərbaycanın dövlət müstəqilliyinin və təhlükəsizliyinin qorunub saxlanılması, onun dayanıqlı inkişafının təmini, ərazi bütövlüyümüzün bərpa edilməsi sahəsində qanunların hazırlanıb qəbul edilməsi də məhz Heydər Əliyevin adı ilə bağlıdır. Onun rəhbərliyi ilə qəbul olunan müstəqil Azərbaycanın ilk Konstitusiyası hüquqi, demokratik dünyəvi dövlət quruculuğunun əsaslarını müəyyən etdi, yeni siyasi sisteminin yaranmasına yol açdı, habelə hakimiyyət bölgüsü təmin olundu, dövlət hakimiyyəti sistemində parlamentin yeri və rolu müəyyən edildi. Parlamentin müasir standartlara uyğun fəaliyyət mexanizmi yaradıldı.

Deputatlar bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyatın bütün sahələrində təqdirəlayiq uğurların əldə edildiyini, sabitliyə, tərəqqiyə nail olunduğunu, ölkəmizin beynəlxalq miqyasda söz sahibi olduğunu vurğulayıblar. Ölkə rəhbərliyinin daim Milli Məclisə böyük qayğı və diqqətlə yanaşdığını söyləyiblər. Bildirilib ki, dövlət başçısının təşəbbüsü ilə Milli Məclisin qəbul etdiyi qanunvericilik aktları Azərbaycanın siyasi sisteminin, iqtisadiyyatının daha da möhkəmlənməsini, vətəndaşlarının sosial müdafiəsinin və rifahının yüksəlməsini təmin edir.

Çıxışlarda qeyd olunub ki, Azərbaycan parlamenti ümummilli məqsədlərin həyata keçirilməsində dövlət başçısını dəstəkləmək üçün bütün imkanlarını səfərbər edib.

Deputatlar bu gün parlament diplomatiyasının müvəffəqiyyətlə inkişaf etdiyini, bir çox ölkənin parlamenti ilə qarşılıqlı əlaqələrin qurulduğunu bildiriblər. Milli Məclisin Sədri Sahibə Qafarovanın uğurlu fəaliyyəti sayəsində Azərbaycan parlamentinin beynəlxalq əlaqələrinin daha da genişləndiyini qeyd ediblər. Milli Məclisin digər ölkələrin parlamentləri ilə beynəlxalq təşkilatlar, o cümlədən TÜRKPA çərçivəsində möhkəm əməkdaşlıq əlaqələrindən danışıblar.

Beynəlxalq Konfransda Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının Elm, təhsil və mədəniyyət komitəsi sədrinin birinci müavini İlyas Umaxanov, Qazaxıstan Respublikası Parlamenti Senatının Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin katibi Darxan Kıdırali, Özbəkistan Respublikası Ali Məclisi Senatının Gənclər, mədəniyyət və idman komitəsinin sədri Orzigül Kozixonova, Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin Sosial məsələlər, səhiyyə, elm, təhsil, mədəniyyət, gənclər və qadın siyasəti komitəsinin sədri Məhmədşoh Gülzoda, Türkiyə Böyük Millət Məclisinin Cümhuriyyət Xalq Partiyası Qrupunun sədr müavini Murat Emir, İraq Respublikası Nümayəndələr Şurasının İnsan hüquqları komitəsinin sədri Ərşad Əl-Salihi, Belarus Respublikası Milli Assambleyası Respublika Şurasının Qanunvericilik və dövlət quruculuğu məsələləri üzrə daimi komitəsinin sədr müavini Aleksey Vasilyev, Gürcüstan Parlamentinin İnsan hüquqları və vətəndaş inteqrasiyası komitəsinin sədr müavini Savalan Mirzəyev, Türkiyə Böyük Millət Məclisinin Milliyyətçi Hərəkat Partiyası Qrupunun sədr müavini Filiz Kılıç, Malayziya Nümayəndələr Palatasının Beynəlxalq əlaqələr və ticarət komitəsinin sədri Vonq Çen, Türkiyə Böyük Millət Məclisinin Ədliyyə komissiyasının sədri Cüneyt Yüksel, Qırğız Respublikası Joqorku Keneşinin Azərbaycan Respublikası ilə əməkdaşlıq üzrə dostluq qrupunun rəhbəri Səidbek Zulpuyev, Türkiyə Böyük Millət Məclisinin Rəqəmsal Media Komissiyasının sözçüsü Zeynep Yıldız, Türkiyə Böyük Millət Məclisinin üzvü Süreyya Öneş Derici, Pakistan İslam Respublikası Milli Assambleyasının üzvü Sərdar Əmmar Əhməd Xan Leqhari, Türkiyə Böyük Millət Məclisinin üzvü Kürşad Zorlu, TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Er çıxış edərək fikirlərini bölüşüblər.

Qonaqlar Azərbaycan parlamentinin fəaliyyətini, parlamentlərarası əlaqələrin inkişafına verdiyi töhfəni yüksək dəyərləndiriblər. Azərbaycanın qazandığı uğurlarda parlamentin böyük rolu olduğunu vurğulayıblar. Qeyd edilib ki, Milli Məclis Azərbaycanın inkişaf edərək regionda lider ölkəyə çevrilməsinə mühüm töhfələr verir.

Xarici ölkələrin parlamentariləri ölkəmizin qurduğu dostluq əlaqələrindən, Azərbaycanda hökm sürən tolerantlıqdan, demokratik inkişafdan məmnunluqlarını ifadə ediblər. Ölkəmizin beynəlxalq məsələlərlə bağlı uğurlu siyasət yürütdüyünü söyləyiblər. Onlar təmsil etdikləri ölkələrin Azərbaycanla hərtərəfli əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını deyiblər. Bildirilib ki, Azərbaycan beynəlxalq səviyyədə təhlükəsizliyin təmin edilməsinə öz töhfələrini verir. Ölkəmiz tərəfindən mədəniyyətlərarası, dinlərarası dialoqun təbliği sahəsində mühüm addımlar atılıb. Qeyd edilib ki, bu gün Azərbaycanda multikulturalizm ənənələri formalaşıb. Bakıda keçirilən bir çox mühüm əhəmiyyətli beynəlxalq tədbirlər beynəlxalq təşkilatlar, dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir.

Tədbirə yekun vuran Milli Məclisin Sədri Sahibə Qafarova "Parlamentarizm: ənənələr və perspektivlər" mövzusunda Beynəlxalq Parlament Konfransında iştirak etdiklərinə və məzmunlu çıxışlarına görə qonaqlara bir daha təşəkkürünü bildirib.

***"Azərbaycan"***

# Beynəlxalq parlament konfransının iştirakçıları Fəxri xiyabanı, Şəhidlər xiyabanını və "Türk şəhidliyi"ni ziyarət ediblər



**Dekabrın 7-də ölkəmizdə səfərdə olan "Parlamentarizm: ənənələr və perspektivlər" mövzusundakı beynəlxalq parlament konfransının iştirakçıları Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib, önünə əklil qoyublar.**





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, sonra nümayəndə heyətləri Şəhidlər xiyabanına gələrək, ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsi önünə əklil qoyublar.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Konfrans iştirakçıları sonra 1918-ci ildə Azərbaycanın ərazi bütövlüyü və Bakının azad edilməsi uğrunda döyüşlərdə həlak olmuş qəhrəman türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsini ziyarət edib, gül dəstələri düzüblər.

Ziyarət zamanı nümayəndə heyətlərini Milli Məclisin Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, deputatlar Heydər Əsədov, Eldar Quliyev, Ağalar Vəliyev, Cavanşir Paşazadə, Səttar Möhbalıyev və digər rəsmi şəxslər müşayiət ediblər.

***"Azərbaycan"***

# Bakıda "İctimai diplomatiyada parlamentlərin rolu: Azərbaycan və Türkiyə nümunəsi" mövzusunda "dəyirmi masa" təşkil olunub

**Dekabrın 7-də ADA Universitetində "İctimai diplomatiyada parlamentlərin rolu: Azərbaycan və Türkiyə nümunəsi" mövzusunda beynəlxalq "dəyirmi masa" keçirilib.**





Tədbirdə açılış nitqi ilə çıxış edən Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov müstəqilliyimizin bərpasının xalqımız üçün tarixi bir nemət olduğu kimi, Azərbaycanla Türkiyə arasında qardaşlıq münasibətlərinin möhkəmlənməsi baxımından da mühüm əhəmiyyət daşıdığını söyləyib. Ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin daha da inkişaf etdiyini deyən Ə.Əhmədov bildirib: "Bu inkişaf təkcə iki ölkə arasında deyil, həm də beynəlxalq münasibətlər sistemində onların nüfuzunun artmasına və qlobal arenada daha fəal mövqe tutmalarına imkan yaradıb".

Parlament sədrinin birinci müavini, həmçinin diqqətə çatdırıb ki, dünya çox sürətlə dəyişir, təbiət dəyişir, insanlar da dəyişir. Cəmiyyət də dəyişir və çox təəssüflə qeyd etmək lazımdır ki, bir sıra hallarda bütün bu dəyişikliklər insanlara acılar gətirir. İkinci Dünya müharibəsindən sonra yaranan beynəlxalq münasibətlər sistemi və beynəlxalq hüquq indi ağır böhran içərisindədir. Acı həqiqət ondan ibarətdir ki, artıq proses geriyə dönməz xarakter alıb.

Onun sözlərinə görə, artıq dünya beynəlxalq münasibətlər sisteminin, beynəlxalq hüququn yeni reallıqlara uyğunlaşdırılmasına məhkumdur. "Təəssüflə qeyd etmək lazımdır ki, İkinci Dünya müharibəsindən sonra hüququn ali olmasını təmin etmək məqsədilə yaradılmış beynəlxalq münasibətlər sistemi də, beynəlxalq hüquq sistemi də çöküb və bunun alternativi olaraq güc amili meydana gəlir. İndi güc beynəlxalq hüququn çox ciddi alternativinə çevrilir. Səbəb də ondan ibarətdir ki, beynəlxalq münasibətlər sistemi də, beynəlxalq hüquq da indi yaranmış dünya reallıqlarına lazımınca cavab verə bilmir", - deyə parlament sədrinin birinci müavini əlavə edib.

Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri Fuat Oktay ölkələrimiz arasında münasibətlərin xüsusi əhəmiyyətə malik olduğunu deyib. Bildirilib ki, iki ölkə arasındakı qardaşlıq və strateji tərəfdaşlıq bütün siyasi məsələlərin fövqündə dayanır, milli maraqlar çərçivəsində qiymətləndirilir. Bu münasibətlərin güclənməsi təkcə iki ölkə üçün deyil, bütövlükdə türk dünyası üçün mühüm töhfələr verir.

F.Oktay diqqətə çatdırıb ki, bu il Azərbaycan parlamentinin 106-cı ildönümü ilə yanaşı, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində ilk dəfə seçkilərin keçirilməsi ilə əlamətdardır. "Bu, ölkənin demokratik inkişafında mühüm mərhələ kimi qiymətləndirilir. İlk dəfə olaraq azad edilmiş ərazilərdə xalqın iradəsi seçkilər vasitəsilə parlamentə əks olunub. Bu proses Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsi və demokratik dəyərlərin təntənəsi baxımından xüsusi əhəmiyyət kəsb edir", - deyə o əlavə edib.

Azərbaycan ilə Türkiyə arasında mövcud olan dostluq və strateji tərəfdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsinin əhəmiyyətinə toxunan TBMM-in komitə sədri vurğulayıb ki, regionda sülhün və sabitliyin möhkəmləndirilməsi istiqamətində birgə səylərin davam etdirilməsi vacib məsələdir. Bu cür beynəlxalq tədbirlər iki qardaş ölkə arasındakı əməkdaşlığın dərinləşməsinə mühüm töhfələr verir.

Daha sonra konfransda "Parlamentlərin ictimai diplomatiyada rolu" mövzusunda müzakirələr aparılıb.

Müzakirələrdə Milli Məclis Sədrinin müavinləri Ziyafət Əsgərov, Rafael Hüseynov, Musa Qasımlı, Türkiyə Böyük Millət Məclisinin Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbərinin müavini Orhan Erdem, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, TBMM-in üzvü Nurhayat Altaca Kayışoğlu, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Nigar Arpadarai, TBMM-in Türkiyə-Avropa İttifaqı Birgə Parlament Komitəsi həmsədrinin müavini Konur Alp Koçak çıxış ediblər.

Tədbirdə Azərbaycan və Türkiyə parlamentlərinin ictimai diplomatiya sahəsindəki rolu, ortaq layihələrin həyata keçirilməsi, regional və qlobal çağırışlara birgə cavab vermək məqsədilə əməkdaşlıq imkanlarının genişləndirilməsi, eləcə də əməkdaşlığın dərinləşdirilməsi və ictimai diplomatiyanın səmərəliliyinin artırılması istiqamətində məsələlər müzakirə olunub.

***"Azərbaycan"***

# Milli Məclisdə görüşlər keçirilib

Dekabrın 7-də Milli Məclisin Qazaxıstanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Nizami Səfərov "Parlamentarizm: ənənələr və perspektivlər" mövzusunda beynəlxalq parlament konfransında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Qazaxıstan Respublikası Parlamenti Senatının Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin katibi Darxan Kıdırali və Parlament Məclisinin İqtisadi islahat və regional inkişaf komitəsinin üzvü Murad Abenov ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, söhbət zamanı Azərbaycan və Qazaxıstan arasında ikitərəfli münasibətlərin daha da genişləndirilməsi, parlamentlərarası əlaqələrin dərinləşdirilməsi, regional və qlobal məsələlərdə əməkdaşlığın gücləndirilməsi, habelə beynəlxalq platformalarda birgə fəaliyyətin inkişaf etdirilməsi perspektivləri ətraflı müzakirə olunub. Bununla yanaşı, tərəflər müxtəlif sahələrdə qarşılıqlı maraq doğuran məsələlər, o cümlədən iqtisadi, siyasi və humanitar əlaqələrin möhkəmləndirilməsi yollarını da nəzərdən keçiriblər.

Görüşdə Milli Məclisin deputatı Anar Məmmədov iştirak edib.

❖ ❖ ❖

Dekabrın 7-də Milli Məclisin Tacikistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Aydın Mirzəzadə "Parlamentarizm: ənənələr və perspektivlər" mövzusunda beynəlxalq parlament konfransında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin Sosial məsələlər, səhiyyə, elm, təhsil, mədəniyyət, gənclər və qadın siyasəti komitəsinin sədri Məhmədşoh Qulzoda ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, söhbət zamanı Milli Məclisdə keçirilən beynəlxalq parlament konfransının əhəmiyyəti, Azərbaycan və Tacikistan arasında iqtisadi, təhsil, səhiyyə, mədəniyyət, parlamentlərarası əlaqələrin inkişafı barədə fikir mübadiləsi aparılıb. Bildirilib ki, iki ölkənin münasibətləri qardaşlıq və dostluq xarakteri daşıyır və Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi Tacikistan tərəfindən məmnunluqla qarşılanır. Tərəflər parlamentlərarası əlaqələrin inkişafında dostluq qruplarının rolu, qarşılıqlı tələbə mübadiləsi və müxtəlif sahələrdə maraq doğuran məsələlər barədə də müzakirələr aparıblar.

Görüşdə Milli Məclisin deputatları Azər Badamov, Xanlar Fətiyev, Anatoliy Rafailov və Tacikistanın ölkəmizdəki səfiri İlxom Abduraxmon iştirak ediblər.

❖ ❖ ❖

Dekabrın 7-də Milli Məclisin Pakistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Kəmaləddin Qafarov "Parlamentarizm: ənənələr və perspektivlər" mövzusunda beynəlxalq parlament konfransında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikası Milli Assambleyasının üzvü Sərdar Əmmar Əhməd Xan Leqhari ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşdə Azərbaycan və Pakistan dövlətləri və xalqları arasındakı münasibətlərin tarixi, Pakistanın həm Azərbaycan torpaqlarının Ermənistanın işğalı altında olduğu dövrdə, həm də 44 günlük Vətən müharibəsində ölkəmizə verdiyi siyasi dəstək, diplomatik əlaqələrimizin keçdiyi inkişaf yolu, parlamentlərarası münasibətlərimizin dərinləşdirilməsi perspektivləri barədə müzakirələr aparılıb. Söhbət zamanı Pakistan parlamentinin nümayəndə heyətinin Milli Məclisdə keçirilən beynəlxalq parlament konfransında iştirakı yüksək qiymətləndirilib. Pakistanlı qonaq bütün çətinliklərə və maneələrə baxmayaraq, Azərbaycanın COP29 kimi mötəbər beynəlxalq tədbiri yüksək səviyyədə keçirməsinə və əldə olunan uğurlu nəticələrə görə təbriklərini çatdırıb. O qeyd edib ki, Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə apardığı tikinti-quruculuq işləri yüksək qiymətləndirilir. Tərəflər beynəlxalq təşkilatlarda qarşılıqlı dəstəyin əhəmiyyəti, parlamentlərarası dostluq qruplarının fəaliyyəti və digər mövzularda da fikir mübadiləsi aparıblar.

Söhbət zamanı Milli Məclisin deputatı Elşən Musayev Azərbaycan-Pakistan əlaqələrinə dair fikirlərini bölüşüb.

Görüşdə Pakistanın ölkəmizdəki səfiri Qasim Mohiuddin və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

## *TÜRKPA-nın baş katibi:* "Milli Məclis sülhün, təhlükəsizliyin və qarşılıqlı anlaşmanın təşviqinə əhəmiyyətli töhfə verir"



*"Azərbaycanda parlamentarizmin tarixi azadlıq, demokratiya və milli birlik ideyalarının təşəkkül tapdığı ən mürəkkəb tarixi şəraitə söykənir. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk demokratik respublika olaraq tarixə düşdü, onun parlamenti isə xalqın milli suverenliyinin və siyasi yetkinliyinin simvoluna çevrildi. Azərbaycan Xalq Cümhuriyyəti parlamenti fəaliyyətə başladığı ilk gündən demokratik respublikalara xas təşkilati prinsipləri rəhbər tutaraq parlament demokratiyasının əsasını qoydu".*

AZƏRTAC xəbər verir ki, bu fikirləri TÜRKPA-nın baş katibi Mehmet Süreyya Er dekabrın 7-də Milli Məclisdə keçirilən "Parlamentarizm: ənənələr və perspektivlər" mövzusunda beynəlxalq parlament konfransında çıxışı zamanı səsləndirib.

Baş katib daha sonra deyib: "Milli Məclisin TÜRKPA çərçivəsində əməkdaşlıq prosesində fəal iştirakı türk dünyası regionunda və ondan kənarda parlament diplomatiyasının möhkəmlənməsinə, sülhün, təhlükəsizliyin və qarşılıqlı anlaşmanın təşviqinə əhəmiyyətli töhfə verir. Əminəm ki, Azərbaycan parlamenti zəngin təcrübəsi ilə yeni uğurlar qazanmağa davam edəcək".

## *Gürcüstan parlamentinin komitə sədrinin müavini:* "Azərbaycanla strateji tərəfdaşlığı daha da dərinləşdirməyə tam hazırıq"



"Azərbaycanın ilk parlamenti ölkədə parlamentarizm ənənəsinin formalaşmasında və ümumilikdə Azərbaycan Respublikasının inkişafında əhəmiyyətli rol oynayıb. Fəaliyyət müddətinin qısa olmasına baxmayaraq, ilk parlament mühüm qanunvericilik qərarlarının qəbuluna nail olub. 1918-ci ildən sonra Azərbaycanın qanunverici orqanı bir çox çətinlik və dəyişikliklərdən keçib, lakin bu gün artıq bir əsrdən çoxdur ki, ölkənin siyasi, iqtisadi və sosial tərəqqisinə böyük töhfə verməkdə davam edir".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Gürcüstan parlamentinin İnsan Hüquqları və Vətəndaş İnteqrasiyası Komitəsinin sədr müavini Savalan Mirzəyev dekabrın 7-də Bakıda keçirilən "Parlamentarizm: ənənələr və perspektivlər" mövzusunda beynəlxalq parlament konfransında çıxışı zamanı ifadə edib.

Savalan Mirzəyev Gürcüstan və Azərbaycan arasındakı tarixən möhkəm dostluq və səmərəli əməkdaşlığın davam etdiyini vurğulayaraq deyib: "Ortaq tariximiz və qarşılıqlı hörmətimiz, eyni zamanda regional sabitlik və rifahın təmin edilməsi arzusu ölkələrimiz arasında əlaqələri daha da gücləndirir. Parlamentlərarası münasibətlərin inkişafında müsbət dinamikanı xüsusi qeyd etmək istəyirəm. Həm parlament sədrləri, həm də komitələr və dostluq qrupları arasında sıx əməkdaşlıq mövcuddur. Biz, ölkələrimiz arasında strateji tərəfdaşlığı daha da dərinləşdirməyə və regional təhlükəsizliklə əlaqələrin inkişafı istiqamətində birgə işimizi davam etdirməyə tam hazırıq".

## *Darxan KIDIRALİ:* "Can Azərbaycanın hər uğuruna sevinirik"

**"Ölkələrimiz dost və qardaş ölkələr olaraq diplomatik münasibətləri, o cümlədən parlamentlərarası əlaqələri daha da genişləndirirlər. Türk Dünyasının Milli Komissiyalarında ortaq model qanunlar yaradılır".**



AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Qazaxıstan Respublikası Parlamenti Senatının Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin katibi Darxan Kıdırali söyləyib.

O, ölkələrimizin parlamentlərində dostluq qruplarının uğurla fəaliyyət göstərdiyini deyib: "Bu da ölkələrimizin iqtisadi, siyasi, logistika, tranzit, turizm, mədəniyyət, elm və digər sahələrdə əməkdaşlığının artırılmasına və strateji razılaşmaların təmin olunmasına böyük töhfə verir. Mən, həmçinin Azərbaycanı bu yaxınlarda uğurla keçən COP29 tədbiri münasibətilə təbrik etmək istəyirəm. Can Azərbaycanın hər uğuruna sevinirik", - deyə Darxan Kıdırali vurğulayıb.



# Müstəqil siyasətin uğurları

## Ölkəmiz yeni yüksəliş dövrünə qədəm qoyub

**Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu günədək olan zaman kəsiyi Azərbaycanın tarixinə hərtərəfli, sürətli və davamlı inkişaf dövrü kimi daxil olub. Bu dövr tariximizin ən şərəfli səhifələridir.**

Dövlət başçısının inkişafa, tərəqqiyə hesablanmış, məqsədyönlü və uğurlu dövlətçilik fəaliyyəti tarixin sınaqlarından üzüağ çıxmış müasirlik, daim yenilənmə prinsipləri üzərində qurulmuşdur. İndiyə qədər bütün sahələrdə həyata keçirilmiş islahatlar ölkəmizin tarixində yeni bir inkişaf mərhələsi olan İlham Əliyev erasını ortaya qoymuşdur. Bu, Azərbaycan xalqının tarixində xüsusi dəyəri olan bir mərhələdir. Bu, Azərbaycan dövlətçiliyinin möhkəmləndiyi, inkişaf etdiyi, daim uğurlar qazandığı bir dövrdür. Sevincini yaşadığımız bu mərhələdə dövlət başçısının rəhbərliyi altında görülən işlər, həyata keçirilən islahatlar Azərbaycan xalqına böyük uğurlar qazandırmışdır. Tarixi əhəmiyyətinə görə Prezident İlham Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi 21 ilin hər ili xalqımız üçün tərəqqi, inkişaf və misilsiz uğur deməkdir. Qəbul edilən dövlət proqramları əsasında ölkəmizin regionları dinamik inkişaf etmişdir. Beynəlxalq və yerli müşahidəçilər bu inkişafa və tərəqqiyə əsaslanıb çox haqlı olaraq bildirirlər ki, dünyanın heç bir ölkəsində regionlar Azərbaycandakı qədər ardıcıl və sürətlə inkişaf etmir. Belə sürətli inkişaf tempinə, aparılan quruculuq işlərinin sürətinə əsaslanıb demək olar ki, bu, indiyə qədər dünyanın heç bir yerində olmayan regionların inkişaf etdirilməsinin İlham Əliyev modelidir.

Prezident İlham Əliyevin 21 illik hakimiyyəti dövründə xalqımızın tarixində ən qüdrətli Azərbaycan formalaşıb. Bu günlər xalqımız tarixinin ən şanlı və şərəfli dövrünü yaşayır. Azərbaycan heç vaxt indiki qədər güclü və qüdrətli olmayıb. Dövlət başçısı yüksək idarəçiliyi, həyata keçirdiyi uğurlu və çevik siyasəti ilə respublikamızı dünyanın inkişaf etmiş böyük nüfuza malik olan ölkələri sırasına çıxarıb. Prezidentin həm daxili, həm də xarici siyasətinin mərkəzində Azərbaycan xalqı, onun əmin-amanlığı dayanır. Azərbaycan Prezidentinin başlıca amalı və məqsədi daim qurub-yaratmaq, dövlətçiliyimizi möhkəmləndirmək və xalqımızı xoş günə, firavan həyata qovuşdurmaqdır. Həyata keçirilən uğurlu islahatlar nəticəsində bütün sahələrdə sürətli inkişafa nail olunub, nailiyyətlər qazanılıb. Bu, insanların rifah halını, sosial vəziyyətini daha da yaxşılaşdırıb.

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın beynəlxalq nüfuzu getdikcə artır, ölkəmiz dünyada söz sahibinə çevrilir. Buna görə də regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Qürurla deyə bilərik ki, dövlət başçımız daim xalqımızı sevindirən layihələrə imza atır. Bunu Azərbaycanın iqtisadiyyatında, elmində, təhsilində, səhiyyəsində və başqa sahələrdə çalışan vətəndaşlarımız öz həyatlarında aydın şəkildə hiss edirlər.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi, hərbi sərkərdəlik qabiliyyəti sayəsində Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm Zəfər dövlətimizin gücünü, qüdrətini dünyaya bir daha göstərdi. Qısa müddət ərzində düşmən üzərində qazanılmış bu Zəfər nəinki ərazilərimizin 30 illik işğalına son qoydu, həm də son 100 ildə xalqımıza qarşı törədilən etnik təmizləmə, deportasiya və soyqırımı siyasətini birdəfəlik dayandırdı. Şəhidlərin qanı, zabit və əsgərlərimizin qəhrəmanlığı sayəsində əldə olunmuş bu Zəfər ermənilərin və onların dünyadakı havadarlarının regionda addım-addım həyata keçirdikləri 200 illik işğal strategiyasını darmadağın etdi. İkinci Qarabağ müharibəsində qazanılan Zəfər 200 illik tariximizdə ilk dəfə olaraq, Qərbi Azərbaycandan didərgin salınmış soydaşlarımızın öz ata-baba yurdlarına qayıdışı üçün əlverişli zəmin yaratdı.

Bu gün ölkəmiz sosial-iqtisadi cəhətdən kimsədən asılı olmadan öz inkişaf yolu ilə inamla addımlayır. Azərbaycanın rəyi, mövqeyi ilə dünyanın aparıcı dövlətləri də hesablaşırlar. Daim inkişafda, tərəqqidə və güclənməkdə olan Azərbaycan regionun lider dövləti kimi bölgədəki yeni reallıqların əsas müəllifi, iqtisadi-siyasi proseslərin başlıca iştirakçısı rolunu oynayır. Azərbaycanı inamla uğurlu gələcəyə aparan Prezident İlham Əliyevin hakimiyyət illəri birmənalı olaraq ölkənin dayanıqlı inkişafı, daim güclənməsi, dünyada söz sahibinə çevrilməsi ilə tarixə yazılıb.

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan başqa sahələrdə olduğu kimi, iqtisadi sahədə də böyük uğurlar qazanıb. Ölkəmizin iqtisadi-siyasi uğurlarını əsaslandıran başlıca amillərdən biri də möhkəm siyasi sabitliyin olması, iqtisadiyyatın şaxələndirilməsi ilə zəruri islahatların uğurla həyata keçirilməsidir. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən uğurlu iqtisadi inkişaf modeli ölkəmizin dayanıqlı iqtisadi yüksəlişini, tərəqqisini təmin edir. Bir-birinin ardınca uğurlar qazanılır. Getdikcə ölkəmizin iqtisadi gücü və qüdrəti daha da artır.

Azərbaycan Prezidenti İlham Əliyevin uğurları sırasında xarici KİV və beynəlxalq analitiklər, bir qayda olaraq, milli səviyyədə siyasi sabitliyin və təhlükəsizliyin qorunub saxlanması və möhkəmləndirilməsini, eləcə də milli iqtisadiyyatın keyfiyyətcə yüksəlişini və Azərbaycan xalqının mənəvi irsinin qorunub saxlanmasını, dirçəldilməsini və başqa amilləri xüsusi ilə vurğulayırlar. Bütün bunlar isə uğurla həyata keçirilən islahatların nəticəsində əldə olunub.

Bu il ölkəmiz COP29-a da evsahibliyi etdi. Noyabrın 11-dən 23-dək Bakı şəhərində bu mötəbər tədbir yüksək səviyyədə reallaşdırıldı. Konfransda qəbul edilmiş qərarlar bəşəriyyətin gələcəyi üçün müstəsna əhəmiyyət daşımaqla yanaşı, Azərbaycanın liderlik qabiliyyətini və beynəlxalq nüfuzunu bir daha dünyaya göstərdi. Dünya Azərbaycanda birləşdi, bütün diqqətlər ölkəmizə yönəldi. Dünyamız üçün vacib olan konfransda çıxış edən Prezident İlham Əliyev Azərbaycan həqiqətlərini, Azərbaycanın mövqeyini COP29 tribunasından bəyan etdi. Azərbaycan dövləti dünya ölkələrini bir məkana yığaraq bəşəriyyət üçün vacib olan iqlim dəyişikliyi məsələsinin müzakirəsini keçirdi. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçirilməsi sadəcə bir toplantı deyildi. Bu, hər şeydən öncə dünyanın Azərbaycan dövlətinə, Prezident İlham Əliyevə bir daha yüksək etimadını, inam və hörmətini göstərdi. Dövlət başçısı bu yüksək etimadı illərdən bəri yürütdüyü uğurlu xarici siyasət nəticəsində qazanıb. Azərbaycan genişmiqyaslı tədbirin öhdəsindən uğurla gəldi, yüksəksəviyyəli təşkilatçılıq qabiliyyətini bir daha nümayiş etdirdi.

Prezident İlham Əliyev Azərbaycanın dinamik inkişafını təmin edən strategiya yaradıb. Bu inkişaf strategiyası Azərbaycan xalqının əmin-amanlığına, dayanıqlı inkişafına, yüksəlişinə, sosial vəziyyətinin daha da yaxşılaşdırılmasına, gücünün artırılmasına hesablanıb. Həm uğurla, həm də zamanında həyata keçirilən məqsədyönlü islahatlar gündən-günə müsbət nəticələr verir. Dövlət başçısının yaratdığı dayanıqlı, dinamik inkişaf modeli fasiləsiz olaraq Azərbaycan iqtisadiyyatının tərəqqisini təmin edir, ölkəmizin qarşısında yeni perspektivlər açır. Bu perspektivlər isə yeni güc, yeni qüdrət, yeni inkişaf, yeni yüksəliş vəd edir. Deməli, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan xalqını qarşıda daha böyük uğurlar gözləyir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Ədalət bu dəfə də zəfər çalacaq

## Xalqımızın doğma yurdundan zorla qovulmasına beynəlxalq hüquqi qiymət verilməlidir

**Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi Azərbaycan dövlətinin qarşısında duran mühüm strateji və mənəvi xarakterli hədəfdir. XX əsrdə mərhələlərlə həyata keçirilmiş məqsədyönlü deportasiyaya beynəlxalq qiymətin verilməsi xalqımızın tələbidir. Hazırkı Ermənistan ərazisində olan və xalqımızın min illər boyu yaşadığı doğma torpaqlarımıza qayıdışın hüquqi əsasları həm beynəlxalq birlik, həm də Ermənistan tərəfindən rəsmi şəkildə qəbul edilməyincə dövlətlərarası sabit sülh və normal qonşuluq münasibətlərindən danışmaq olduqca çətindir. Bu prosesin reallaşması dünya birliyinin azərbaycanlıların tarixi dədə-baba yurdlarından zorla didərgin salınması faktını qəbul etməsindən keçir, dövlətimizin bu istiqamətdə reallaşdırdığı səylər xalqımız tərəfindən bəyənilir və dəstəklənir.**



### Qarşımızda duran növbəti çağırış

Azərbaycan torpaqlarının ermənilər tərəfindən 30 ilə yaxın müddətdə işğal altında saxlanılması ötən əsrin müxtəlif mərhələlərində xalqımızın tarixən türk yurdu olan müasir Ermənistan ərazisindən zorakı yollarla sıxışdırılması prosesinin davamı olmuşdur. XIX əsrin əvvəllərindən etibarən ermənilərin bir toplum olaraq bu torpaqlara köçürülməsi ilə tarixi Azərbaycan ərazilərinə iddiaları Rusiya imperiyası və keçmiş SSRİ dövründə daha məqsədyönlü və aqressiv xarakter almışdır. Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda keçirilən "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II beynəlxalq konfransın iştirakçılarına ünvanladığı məktubda deyildiyi kimi, "Azərbaycan xalqı ötən əsrin əvvəllərindən başlayaraq köçkünlük problemi ilə üzləşmişdir. Qərbi Azərbaycanda - indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar etnik təmizləməyə məruz qalaraq, tarixi vətənlərindən mərhələli şəkildə zorla çıxarılmışlar. 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə daha dəhşətli xarakter almış köçürmələr nəticəsində yüz minlərlə azərbaycanlı dədə-baba yurdunu tərk edərək Azərbaycana sığınmışdır. Bu dəhşətli deportasiyalardan sonra Ermənistanda bir nəfər belə azərbaycanlı qalmamış və Ermənistan monoetnik dövlətə çevrilmişdir".

2020-ci ilin Vətən müharibəsində qazandığımız parlaq hərbi qələbə və ötən ilin sentyabr ayında keçirilən ildırımsürətli antiterror əməliyyatı nəticəsində Qarabağ və Şərqi Zəngəzurda on illər ərzində kök salmış etnik bölücü və aqressiv hərbi xuntanın fəaliyyətinə son qoyulmuşdur. Müstəqillik dövrümüzdə ilk dəfə olaraq sərhədlərimiz və suverenliyimiz bərpa olunmuşdur. Bu tarixi qələbə və ədalətin bərpası xalqımızın qarşısında duran növbəti çağırışın gerçəkləşdirilməsi üçün siyasi və diplomatik səylərin intensivləşdirilməsinə münbit şərait yaratmışdır. Əgər dünya birliyi Cənubi Qafqaz bölgəsində Azərbaycanla Ermənistanın sabit sülh şəraitində mövcudluğunu arzulayırsa və bu istiqamətdə cəhd göstərmək istəyirsə, azərbaycanlıların tarixi yurdlarından zorla köçürülməsi faktını diqqətdən kənarda saxlamamalıdır.

Bunu 30 il ərzində Azərbaycan torpaqlarının işğalına, yüzminlərlə soydaşımızın dədə-baba yurdundan qovulmasına, xalqımızın başına gətirilmiş soyqırımı faktlarına göz yumub, Ermənistanın işğalçı əməllərini legitimləşdirməyə çalışan bəzi beynalxalq təşkilatlar və dövlətlərdən gözləmək çətindir. Nə üçün? Ona görə ki, Ermənistanın, erməni diasporunun və onların havadarlarının on illərdir Azərbaycana qarşı davam edən çirkin və qərəzli kampaniyası bu "məzlum" xalqın "təqib və məhv edilməsi, deportasiyası və soyqırımına məruz qalması" kimi uydurma təbliğat üzərində qurulub. Qərb dünyasının erməniləri himayə etməsinin başlıca səbəbi "əzilən ermənilərin məhvinin qarşısının alınması" əməliyyatı kimi təqdim olunub və bu proses hələ də davam edir. Burada əsas niyyət yalnız erməniləri müdafiə etmək deyil, həm də bəzi dövlətlərin və siyasi mərkəzlərin öz günahlarını ört-basdır etmək məqsədi daşımaq cəhdidir. Bu xalqın tarixən başına nə gəlibsə, başqalarının əlində siyasi alət olduğu üçün gəlib. Osmanlı dövlətinin tərkibində əmin-amanlıq şəraitində yaşayan ermənilərin "qəflətən soyqırımı"na məruz qalması dünyanı öz xeyirlərinə bölmək istəyənlərin geosiyasi planlarından irəli gələn oyundur.

XX əsr "erməni faciəsi"nin dünya ictimai rəyinə saxtakarlıqla yeridilməsi prosesi ilə müşayiət olunub. Müxtəlif dövlətlərin parlament kürsüləri, beynəlxalq təşkilatların müzakirə masaları türklərə qarşı hədyanların yağdırılması meydanına çevrilib. Yalanla dolu kitablar dərc edilib, "elmi araşdırmalar" aparılıb və belə demək mümkündürsə, erməni təəssübkeşləri müvəqqəti də olsa, istəklərinə nail olublar. İndi isə həm zəmanə dəyişib, həm də şərtlər. İnternet və informasiya əsrində, hər kəsin məlumat mənbəyinə əlçatanlığı reallığında siyasi cəhətdən ən zəif olan şəxsi belə aldatmaq müşkül məsələyə çevrilib. İndi bir vaxtlar Rusiya imperiyası və sovet hakimiyyətinin tərkibində olan xalqımızın müstəqil dövləti - Azərbaycan var. Azərbaycan o dövlətdir ki, qarşısına qoyduğu məqsədi - tarixi ədalətin bərpası missiyasını addım-addım reallığa çevirmək əzmindədir və hədəfindən heç vaxt, heç bir halda geri dönməyəcək. Qərbi Azərbaycandakı torpaqlarımıza qovuşmaq, soydaşlarımızın ana vətənə qayıdışını təmin etmək bu dövlətin əsas tarixi və siyasi missiyalarından biridir.

Ermənilərdən fərqli olaraq, bizim əlimizdə gerçək tarixi sənədlər var. Onları himayə edənlərdən fərqli olaraq, biz yalan dolu kitablar deyil, tarixi ədalətə söykənən elmi əsərlər, araşdırmalar yazırıq. Qanlı erməni diasporundan fərqli olaraq, biz saxtalaşdırılmış mənbələr deyil, müasir reallığa əsaslanırıq: indiki Ermənistan ərazisində əsrlər boyu yaşayan soydaşlarımızın hansı zorakılığa məruz qaldıqlarına dair sənədləşdirilmiş faktlar, videogörüntülər var.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə, xalqımızın əzmi və ordumuzun iradəsi ilə Qarabağ və Şərqi Zəngəzuru geri qaytarmağımız, bu torpaqlarda həyata keçirilən irimiqyaslı bərpa və yenidənqurma işləri deməyə əsas verir ki, Azərbaycan dövləti sözügedən məsələdə də tarixi ədalətin bərpa edilməsi istiqamətindəki səylərindən geri çəkilməyəcək. "Azərbaycan xalqı heç vaxt bu ədalətsizliklə barışmamış, haqq səsini dünyaya çatdırmağa çalışmışdır. 2020-ci ildə Azərbaycanın şanlı qələbəsi ilə bitən Vətən müharibəsi Qarabağdan və Şərqi Zəngəzurdan qovulmuş soydaşlarımızın doğma yurdlarına qayıdışına imkan yaratdı. Azərbaycanın bu ədalətli savaşı beynəlxalq hüququn aliliyinin təntənəsi və qlobal miqyasda məcburi köçürülmə probleminin həllinə verilmiş böyük bir töhfədir. İşğaldan azad edilmiş ərazilərdə hazırda "Böyük Qayıdışa dair Dövlət Proqramı" uğurla icra edilir... Qərbi Azərbaycan İcması üzvlərinin doğma torpaqlara qayıdış hüququnu təmin etmək məqsədilə beynəlxalq hüquqa uyğun dinc təşəbbüslərinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsi olduqca əhəmiyyətlidir. Uğurla həyata keçirilən Qayıdış Konsepsiyasına əsaslanan bu təşəbbüslər qərbi azərbaycanlıların sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına geri dönməsinə böyük töhfələr verəcəkdir", - deyə dövlət başçısının konfrans iştirakçılarına ünvanladığı məktubda deyilir.

### Qərbi azərbaycanlıların fundamental hüquqları bərpa edilməlidir

Ermənistan dövləti hər vəchlə bu tarixi gerçəkliyi inkar etməyə çalışır və təəssüf ki, dünya birliyi də vətənlərindən zorla qovulmuş azərbaycanlıların probleminə biganə qalmaq yolunu tutub. Necə ki, biz bunu illərboyu Qarabağ və Şərqi Zəngəzurdan olan əhalimizin acınacaqlı vəziyyətinə münasibətdə sərgilənən etinasızlıqda görmüşük. Bununla belə xalqımız yaxşı anlayır ki, tarixi ədaləti bərpa etmək üçün ikili standartların hökm sürdüyü dünya reallığında ilk növbədə öz gücümüzə və iradəmizə əsaslanmalıyıq. Prezident İlham Əliyevin tədbir iştirakçılarına göndərdiyi məktubda hazırkı Ermənistan ərazisindən zorla qovulmuş azərbaycanlıların vətən həsrəti və doğma yurdlarına, torpaqlarına qayıda bilmək hüququnun tanınmasının "yol xəritəsi" əks olunur: "Ermənistan cəmiyyətində xalqımıza qarşı dərin kök salmış nifrət hissi, mifik "böyük Ermənistan" xülyası, Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddiasının hələ də qalması, bu ölkənin sürətlə silahlanması iki ölkə arasında dayanıqlı sülhün əldə olunmasını əngəlləyir. Ermənistan Qərbi Azərbaycan İcmasının fəaliyyətini qəsdən öz ərazi bütövlüyünə təhdid kimi təqdim etməyə çalışır. Lakin icmanın məqsədi Qərbi Azərbaycandan didərgin salınmış soydaşlarımızın dinc və təhlükəsiz şəraitdə, ləyaqətlə öz dədə-baba yurdlarına qayıdışının təmin olunmasından ibarətdir. Bu, sırf insan haqları məsələsidir". Daha sonra məktubda qeyd olunur ki, Ermənistanın icmanın fəaliyyətini təhdid kimi qələmə verməsi məsələnin əsl mahiyyətini təhrif etmək və beynəlxalq hüquqa əsaslanan qayıdış hüququnu inkar etmək cəhdidir. Qərbi Azərbaycan İcması dəfələrlə Ermənistan hökumətini dialoqa çağırmış, lakin qarşı tərəf bundan imtina etmişdir: "Ermənistan icma ilə danışıqlara başlamalı və qərbi azərbaycanlıların fundamental hüquqlarının bərpa edilməsi istiqamətində praktiki addımlar atmalıdır. Bundan əlavə, Ermənistan xalqımıza məxsus tarixi-mədəni irsin dağıdılması, təhrif edilməsi ilə bağlı vəziyyətin monitorinqi məqsədilə UNESCO-nun faktların araşdırılması missiyasının səfərinə icazə verməli və bu sahədə əməkdaşlıq etməlidir".

### Ermənistan azərbaycanlıların vətən hüququnu tanımalıdır

Müasir Ermənistan ərazisindəki torpaqlarımızın xalqımıza məxsusluğunu burada qalmış və təəssüf ki, əksər hallarda dağıdılmış və Yer üzündən silinmiş Azərbaycan irsi, maddi-mədəniyyət, tarixi-memarlıq abidələri təsdiqləyir. Xalqımızın öz vətəni üzərində olan hüququ, əsrlər boyu yaşadığı el-obasına qayıdış haqqının tanınması ilə yanaşı, həmin torpaqlarda Azərbaycan irsinə qarşı bilərəkdən həyata keçirilmiş Yer üzündən silinmə və unutdurulma siyasəti beynəlxalq hüquqi platformalarda öz ədalətli qiymətini almalıdır.

Azərbaycan ötən illər ərzində və dəfələrlə beynəlxalq birliyi, konkret olaraq UNESCO kimi mötəbər təşkilatı işğal altında olan ərazilərində Ermənistan və erməni separatçı xuntanın həyata keçirdiyi və sivil bəşəriyyətə həqarət olan cinayət əməllərinə diqqət yetirməyə çağırmışdır. Təəssüf ki, humanizm ideyaları ilə pərdələnmiş bəzi dairələr işğal altında olan torpaqlarımıza belə missiyaların gerçəkləşdirilməsinə hər vəchlə əngəllər yaratmaqla Ermənistanın işğal əməllərini ört-basdır etməyə çalışmışlar. Nəticədə yüzlərlə yaşayış məntəqəmiz - şəhər və kəndlərimiz viran edilib Yer üzündən silnmiş, məzarlıqlarımız və ibadət yerlərimiz dağıdılıb təhqir edilmiş, mədəniyyat ocaqlarımız sökülmüş, Azərbaycan xalqının irsi olan maddi-mədəniyyət nümunələrimiz oğurlanıb qəsb edilmişdir.

Acınacaqlı haldır ki, on illərboyu bu vandallığa göz yummuş dünya birliyi xalqımızın ərazi bütövlüyünü bərpa etməsindən sonra da ermənilərin saxta iddialarının aləti olmaqdan qurtula bilmir. Erməni diasporunun, Azərbaycana münasibətdə qərəzli mövqedə olan bəzi dövlətlər və mərkəzlərdə fəaliyyət göstərən erməni lobbisinin təzyiqi ilə xalqımıza qarşı yürüdülən ikili standartlar siyasəti bu sahədə də davam etdirilir. Xalqımıza məxsusluğu tarixi dəlillərlə sübut edilən, ancaq işğal dövründə saxtalaşdırma əməllərinə məruz qalan, indi isə "erməni irsi" kimi təqdim edilən tarixi abidələrə "araşdırıcı" missiyaların təşkil edilməsi məzmunlu təşəbbüslər irəli sürülür. Halbuki Azərbaycan bu tələbi on illər ərzində etsə də, Qərbin "humanist" dəhlizlərində eşidilməmiş olaraq qalmışdır.

Bu baxımdan xalqımızın indiki Ermənistan ərazisindəki doğma yurdu üzərində hüquqlarının tanınması və bərpası prosesində tarixi-memarlıq, maddi-mədəniyyət və mənəvi irsimizin təbliğinin mühüm əhəmiyyəti var. Dövlət başçısının beynəlxalq konfrans iştirakçılarına müraciətində bu amilə toxunması xüsusi əhəmiyyət kəsb edir: "Ermənistan Azərbaycan xalqının əsrlər boyu öz dədə-baba torpaqlarında yaşaması və zəngin mədəni irs yaratması faktını hər vəchlə danmağa çalışır. Ermənistan Qərbi Azərbaycanda xalqımızın min illər ərzində yaratdığı mədəni irsi - tarixi abidələri, qəbiristanlıqları, məscidləri, tarixi yaşayış yerlərini dağıtmış, UNESCO tərəfindən ümumbəşəri mədəni dəyər kimi tanınan Azərbaycan aşıq sənətinə ciddi zərər vurmuşdur. Bu tarixi-mədəni abidələr arasında yalnız Azərbaycan memarlığının və islam mədəniyyətinin parlaq nümunələrindən biri olan Göy Məscid salamat qalmışdır. Lakin Ermənistan Göy Məscidin orijinal tarixi-memarlıq üslubunu qəsdən dəyişdirərək onu başqa ad altında təqdim etməyə çalışır. Regionun tarixini və mədəni mənzərəsini təhrif etmək, yenidən yazmaq məqsədi daşıyan belə destruktiv addımlar dözümsüzlük və irqçilikdən başqa bir şey deyildir".

Azərbaycan dövləti xalqımızın XX əsrdə mərhələlərlə hazırkı Ermənistan ərazisində olan vətənindən qovulmasına, məqsədli şəkildə deportasiyasına beynəlxalq hüquqi qiymətin verilməsinə nail olmaq əzmindədir. Dünya birliyi ilə yanaşı, Ermənistan da azərbaycanlıların bu hüququnu tanımalı və reallıqla barışaraq tarixi ədalətin bərqərar olmasına müqavimət göstərməməlidir. Azərbaycan xalqı onsuz da bu hüququnu bərpa edənə qədər mübarizə aparacaqdır. Necə ki, Qarabağın və Şərqi Zəngəzurun işğalı ilə barışmayaraq, minlərlə şəhid verərək ərazi bütövlüyümüzə nail olmuşuq, eləcə də dədə-baba yurdumuza qayıdışımız üçün mübarizəmizi davam etdirəcəyik.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Cənubi Qafqaza terror gətirən sənəd

## I Pyotrun ermənilərin Azərbaycan torpaqlarına köçürülməsini rəsmiləşdirən fərmanından 300 il ötür

◆ Tarix olduğu kimi

**Rus çarı I Pyotrun 1724-cü il noyabrın 10-da imzaladığı fərmandan sonra ermənilərin Azərbaycanın Xəzər dənizi sahillərində, Dərbənd və Bakı, həmçinin Gilan, Mazandaran və Gürgan ərazilərində məskunlaşmasının icrasına başlanılıb. Rusiyanın işğal etdiyi torpaqlara ermənilərin köçürülməsi prosesi növbəti əsrlərdə də davam etməklə özü ilə bərabər bəlalar gətirib. Ermənilər əsasən müsəlman əhalinin məskunlaşdıqları ərazilərə köçürülür, bununla da əhalinin etnik tərkibini dəyişməyə çalışırdılar. Məskunlaşdıqları torpaqlarla bağlı ərazi iddialarına başlayan ermənilər birgə yaşadıqları müsəlman əhalinin həmin yerlərdən çıxarılması ilə bağlı hər yola əl atırdılar. Elə o dövrdən vəhşi xislətlərini büruzə verirdilər.**



Ermənilərin Azərbaycan ərazilərinə köçürülmə prosesini daha da dərinləşdirən XIX əsrdə imzalanan Türkmənçay sülh müqaviləsi oldu. Saziş əsasında 40 min erməni ölkəmizin müxtəlif ərazilərində məskunlaşdırıldı. Əsrin sonlarına doğru əhalinin milli tərkibində ermənilərin sayı artdı. Erməni əhalisinin artması XX əsrin əvvəllərində müsəlmanlara qarşı sistemli soyqırımı siyasətinin də başlanğıcı oldu. 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Respublikasının təşkil edilməsi ilə ermənilərin məqsədlərinin həyata keçirilməsi üçün əlverişli şərait yarandı. Sonrakı mərhələdə ermənilərin xalqımızın başına gətirdiyi müsibətlər, qətliamlar isə təxminən 35 il əvvəlki tarixə dayanır. Qarabağda məskunlaşan ermənilər silahlanaraq azərbaycanlıları ağır işgəncələrə məruz qoydu, torpaqlarını işğal edərək onları doğma yurd-yuvalarından didərgin saldı, illərlə məcburi köçkün həyatına məhkum etdilər. İşğal illərində isə erməni barbarlarının törətdiyi vəhşiliklər bu gün də göz önündədir.

### Ermənilərin Xəzəryanı ərazilərə köçürülməsi regiona ciddi bəlalar gətirdi

Ermənilərin Türkiyə və İran ərazisindən planlı şəkildə Qafqaza köçürülməsinin arxiv sənədlərində əks olunmuş dəqiq tarixi olduğunu qeyd edən Milli Məclisin Sədr müavini Musa Qasımlı deyir ki, Rusiya çarı I Pyotr 1724-cü il 10 noyabr tarixdə imzaladığı fərmanla Azərbaycanın Xəzər dənizi sahillərində, Bakı və Dərbənddə, həmçinin digər ərazilərdə ermənilərin məskunlaşdırılmasının rəsmi başlanğıcı qoyuldu. Buna qədər regionda ermənilər olsa da, onlar azərbaycanlıların həyətlərində, təsərrüfatlarında işləyib çalışanlar idi. Belə bir fərmanın verilməsinin bəlli strateji hədəfləri var idi. Düşünülürdü ki, Şimal müharibəsindən sonra çarizm isti dənizlərə çıxmaq strategiyasını həyata keçirəcək və həmin məqsədin yerinə yetirilməsində ermənilər özünəməxsus rol oynayacaq. I Pyotrun fərmanı rəsmi sənəd olsa da, birdən-birə həyata keçirilmədi. "1813-cü il Gülüstan, 1828-ci il Türkmənçay sülh müqavilələrindən sonra ermənilərin Azərbaycan ərazilərinə köçürülməsinin daha geniş mərhələsi başlandı. Onların sayı arxiv sənədlərində var və bu sənədləri Rusiya imperiyasının məmurları tərtib ediblər. Ermənilər Azərbaycanın əsasən Naxçıvan, İrəvan və Qarabağ xanlıqları ərazilərində yerləşdirilirdilər. Bu münbit torpaqlarda onlara hər cür şərait yaradıldı, vergi güzəştləri edildi. Qısa müddətdə azərbaycanlıların hesabına varlandılar və regionda pozucu qüvvəyə çevrildilər", - deyə deputat əlavə edir.

M.Qasımlı qeyd edir ki, ermənilərin Cənubi Qafqaza köçürülməsinin növbəti mərhələsi 1877-78-ci - Rusiya-Osmanlı müharibəsindən sonrakı illərə aiddir.

Həmin vaxt ermənilər Cənubi Qafqaza gətirilərək Azərbaycan torpaqlarına yerləşdirildilər və XIX əsrin sonlarında da bu proses planlı şəkildə həyata keçirildi. Ermənilərin köçürülməsi ilə regionda demoqrafik şərait tədricən dəyişilməyə başladı. Onlar özləri ilə regiona düşmənçilik gətirdilər. Qısa müddətdə təşkilatlarını yaratdılar və bu təşkilatın proqramında hədəfə çatmağın başlıca yolu kimi terror müəyyənləşdirildi. Ümumi erməni işi üçün vəsaitini əsirgəyən erməniləri belə terror təşkilatları aradan götürürdülər. Özlərini siyasi təşkilat hesab edən bu dəstələrin təməlində terror və zorakılıq dayanırdı. Onun da ilk təzahürü XIX əsrin sonlarında İrəvanda bazar meydanında azərbaycanlılarla toqquşmada özünü göstərdi. Quberniya sənədlərində yazılır ki, müsəlmanlar özlərini təmkinli apardılar və bunun hesabına böyük qırğının qarşısı alındı. Çar Rusiyası ermənilərə nə qədər himayədarlıq etsə də, erməni təşkilatları və kilsəsi çarizmi arxadan vururdular. Çar hökuməti erməni kilsəsinin mülkünü dövlət nəfinə götürmək istəyəndə, erməni təşkilatları terrora keçdilər və bu akt müxtəlif millətlərdən olan məmurlara qarşı törədildi. Erməni terror təşkilatlarının öldürdükləri məmurların içərisində azərbaycanlılar ilə yanaşı, ruslar, gürcülər, yəhudilər, estonlar, latışlar və digər millətlərin nümayəndələri də var idi.

Ermənilərin Xəzəryanı ərazilərə köçürülməsinin regiona ciddi bəlalar gətirdiyini qeyd edən Azərbaycan Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Elşad Mirbəşiroğlu deyir ki, bununla regionda etno-milli zəmində qarşıdurmaların əsası qoyulub. Politoloq qeyd edir ki, İran, Türkiyə ərazilərindən ermənilərin Xəzəryanı bölgələrə köçürülməsi regionda yaşayan digər xalqlar üçün də ciddi problemlər yaratmağa başladı: "Nəzərə almaq lazımdır ki, xüsusilə Türkmənçay sülh müqaviləsindən sonra ermənilərin Azərbaycan ərazilərinə kütləvi şəkildə köçürülməsi yerli əhaliyə çox böyük bəlalar gətirdi. Bir məqamı xüsusi qeyd etməliyəm ki, ermənilər ərazilərə yerləşməyə başladıqları elə ilk gündən necə qatı şovinist olduqlarını büruzə verməyə başladılar. Onlar təkcə müsəlman əhaliyə qarşı deyil, qeyri-erməni olanlara da nifrət nümayiş etdirir və bunu gizlətmirdilər. Əraziləri müsəlman əhalisindən təmizləyərək orada özlərinin utopik ideyalarını gerçəkləşdirməyə çalışdıqlarını ilk dövrdən göstərirdilər".

E.Mirbəşiroğlu xatırladır ki, vaxtilə ermənilərin regiona köçürülməsi prosesində iştirak edən Aleksandr Qriboyedov Rusiya çarına məktubunda qeyd edirdi ki, nəbadə ermənilər Rusiya ərazilərinə köçürülsün. Onlar orada bir müddət yaşadıqdan sonra həmin ərazilərə iddia edəcəklər. Yəni ruslar da ermənilərin mahiyyətini yaxşı dərk edirdi. Qafqazşünas tədqiqatçılardan olan Veliçko və Şavrov öz əsərlərində ermənilərin regionda yerli əhaliyə qarşı hansı vəhşilikləri törətdiklərini yazırdılar. Qeyd olunurdu ki, ermənilər hər vasitə ilə regionun müsəlman əhalisini məhv etməyə çalışırdılar. O dərəcədə düşmənçilik edirdilər ki, yerli əhalinin istifadə etdiyi su mənbəyini belə zəhərləyirdilər. Bununla əhali müxtəlif xəstəliklərə tutulur, kütləvi ölüm halları baş verirdi. Beləliklə, ermənilər sonradan köçürüldükləri torpaqlarda yerli əhaliyə qarşı divan tutur, əraziləri təmizləməyə çalışırdılar.

Professor E.Mirbəşiroğlu deyir ki, ermənilərin ruslara qarşı aşkar düşmənçilik nümayiş etdirdiklərini də xüsusi vurğulamaq lazımdır: "Mənbələrin birində qeyd olunur ki, Gəncə quberniyasının Tərtər kəndi ərazisində rus icması yaşayırmış. Ora erməni həkim göndərilir. O, rus əhalini məqsədli şəkildə müxtəlif xəstəliklərə yoluxduraraq onları məhv etməyə çalışır. Eləcə də regionda yaşayan digər xalqların nümayəndələrinə qarşı bu cür çirkin əməllərdən istifadə edilirdi".

Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov qeyd edir ki, rus çarı I Pyotr Şimal müharibəsi nəticəsində Baltik dənizini ələ keçirərək, öz dili ilə desək, Avropaya pəncərə açdı, eyni zamanda indiki Sankt-Peterburq şəhərinin əsasını qoydu. Bu, təbii ki, Şimal müharibəsi nəticəsində Rusiyaya qəyyum olan dövlətləri, o cümlədən İsveçi darmadağın etdi. Amma rus çarının Xəzər dənizinə də böyük iddiası var idi. "O, 1721-1723-cü illərdə Xəzəryanı bölgələrə hərbi yürüş həyata keçirdi. Beləliklə, Xəzəryanı əraziləri, o cümlədən Bakını işğal etdi. I Pyotr Bakını işğal etdikdən sonra 1724-cü il noyabrın 10-da ermənilərin bu ərazilərə köçürülməsi ilə bağlı fərman verdi. Fərmanın mahiyyəti o idi ki, xristian düşüncəli ermənilər Xəzər dənizinin hansı sahil şəhərində məskunlaşmaq istəyirlərsə, onlarla bağlı heç bir yasaq olmamalıdır. Hətta tapşırılmışdı ki, müsəlmanlar öz ev-eşiklərindən çıxarılıb evləri və torpaq sahələri ermənilərə verilsin. Bu, I Pyotrun ermənilərin Cənubi Qafqazda, o cümlədən Bakıda yerləşdirilməsi ilə bağlı fərmanı oldu".



**Musa Qasımlı,**
*Milli Məclisin Sədr müavini:*

- Ermənilərin Cənubi Qafqaza yerləşdirilməsində növbəti mərhələ I Dünya müharibəsi illəri hesab edilə bilər. Bu illərdə təxminən 250 min nəfərdən çox erməni regiona gətirilib. Ermənilər Şərqi Anadoluda, Rus-Qafqaz cəbhəsi dağıldıqdan sonra Cənubi Azərbaycan ərazisində, İrəvan, Tiflis, Bakı və Yelizavetpol quberniyalarında amansızlıqla kütləvi qırğınlar törədərək, dinc müsəlman-türk əhalini qırıblar. Bunun da zirvə nöqtəsi 1918-ci il 31 Mart soyqırımı olub.



**Anar İsgəndərov,**
*Milli Məclisin komitə sədri:*

- I Pyotrun vəsiyyətində qeyd edilirdi ki, Rusiya o zaman xoşbəxt ola bilər ki, şiə İranı ilə sünni Osmanlı dövləti üz-üzə gətirilsin, aralarında müharibə baş versin, bu iki dövlət zəifləsin və Rusiya Bosfor və Dardanel boğazlarını ələ keçirsin, Konstantinopol paytaxt olsun və isti dənizlərə çıxış əldə edə bilsin. Həm Çar Rusiyası, həm də Sovet Rusiyası İran və Osmanlı arasındakı münasibətləri kəskinləşdirməklə onları zəiflətmək və Konstantinopolu ələ keçirmək üçün cəhdlər göstərdilər. Amma xoşbəxtlikdən Rusiyanın cəhdi alınmadı.



**Elşad Mirbəşiroğlu,**
*siyasi elmlər doktoru:*

- Prezident İlham Əliyevin strateji baxışları, onun iradəsi, ordumuzun şücaəti, xalqın birliyi sayəsində Azərbaycan tarixi ədaləti bərpa edib. Torpaqlarımız işğalçılardan tam təmizlənib. Bundan sonra ermənilərin xalqımıza qarşı 300 illik soyqırımı siyasətini həyata keçirmək imkanı olmayacaq. Bu məsələ köklü şəkildə həll olunub. Bundan sonra siyasi, diplomatik müstəvidə mövqelərimizi daha da möhkəmləndirəcəyik.

### Kütləvi qırğınlar, "böyük Ermənistan" xülyası

Sonrakı mərhələdə ermənilərin artıq aşkar soyqırımı siyasəti həyata keçirmələrinə başladığını qeyd edən E.Mirbəşiroğlu bildirir ki, Azərbaycanın yaşayış məntəqələrində yerli əhaliyə qarşı müxtəlif üsullarla qətliamlar törədildi. Ən böyük soyqırımına isə XX əsrin əvvəllərindən başlanıldı. Bu baxımdan 1918-ci ilin mart soyqırımı kütləvi xarakter daşıyır. Erməni silahlı birləşmələri aldıqları dəstək sayəsində Bakı, Şamaxı, Quba, Lənkəran, Qarabağda yerli əhaliyə qarşı qanlı terror həyata keçirdi. Beləliklə, Azərbaycan ərazilərinə iddialarını etno-milli zəmində ifadə etməyə başladılar. Süni yaradılmış Dağlıq Qarabağ vilayəti sonradan erməni separatizminin formalaşması üçün zəmin yaratdı. "Ermənilər həmin ərazilər, ümumiyyətlə, Azərbaycanın, Türkiyənin, hətta Gürcüstanın əraziləri hesabına "böyük Ermənistan" yaratmağı qarşılarına məqsəd qoydular. Bu baxımdan ermənilərin Xəzəryanı ərazilərə köçürülməsi ilə böyük bəlaların başlanğıcının təməli qoyuldu", - deyə o əlavə edir.

A.İsgəndərov I Pyotrun vəsiyyətini xatırladır. Onun vəsiyyətində qeyd edilirdi ki, Rusiya o zaman xoşbəxt ola bilər ki, şiə İranı ilə sünni Osmanlı dövləti üz-üzə gətirilsin, aralarında müharibə baş versin, bu iki dövlət zəifləsin və Rusiya Bosfor və Dardanel boğazlarını ələ keçirsin, Konstantinopol paytaxt olsun və isti dənizlərə çıxış əldə edə bilsin. Pyotrun vəfatından sonra onun vəsiyyəti elan olundu. Doğrudan da, həm Çar Rusiyası, həm də Sovet Rusiyası İran və Osmanlı arasındakı münasibətləri kəskinləşdirməklə onları zəiflətmək və Konstantinopolu ələ keçirmək üçün bir neçə dəfə cəhdlər göstərdilər. Amma xoşbəxtlikdən Rusiyanın cəhdi alınmadı.

M.Qasımlı bildirir ki, 1904-1905-ci illər rus-yapon müharibəsində erməni təşkilatları Rusiyanı arxadan vuraraq ona xəyanət etdilər: "1905-1906-cı illərdə erməni təşkilatları İrəvan, Tiflis, Bakı, Yelizavetpol quberniyalarının müxtəlif qəzalarında amansızlıqla qırğınlar törətdilər. Çarizmin sənədlərində yazılırdı ki, erməni təşkilatlarının məqsədi Gədəbəydən Naxçıvana qədər bütün müsəlman kəndlərini boşaltmaq, onların evlərinə xaricdən erməniləri gətirmək və böyük Ermənistan yaratmaqdır. Çarizm tərəfindən ermənilərin köçürülməsinin ağır nəticələrini Çar Rusiyasının hakimiyyət nümayəndələri də etiraf edirdilər. Bununla bağlı çoxlu arxiv sənədləri var. Çar Rusiyası imperatorluğunun İşlər müdirinin müavini Stepan Yaxontov yazırdı ki, biz imperiya ərazisinə erməniləri gətirib doldurmaqla səhv etdik, onlar öz əməlləri ilə daim bizim üçün problem yaradacaqlar. Erməni təşkilatları Çar Rusiyası ərazisində Rusiyanın əleyhinə olan dövlətlərə qarşı təbliğatda iştirak edir, həmin ölkələrdə Rusiyaya qarşı çirkin təbliğat aparırdılar.

Milli Məclis Sədrinin müavini vurğulayır ki, ermənilərin Cənubi Qafqaza yerləşdirilməsində növbəti mərhələ I Dünya müharibəsi illəri hesab edilə bilər. Bu illərdə təxminən 250 min nəfərdən çox erməni regiona gətirilib. Buna dair həm Çar Rusiyası orqanlarının, həm də erməni xeyriyyə cəmiyyətinin sənədlərində məlumatlar var. Ermənilər I Dünya müharibəsi illərində Şərqi Anadoluda, Rus-Qafqaz cəbhəsi dağıldıqdan sonra Cənubi Azərbaycan ərazisində, İrəvan, Tiflis, Bakı və Yelizavetpol quberniyalarında amansızlıqla kütləvi qırğınlar törədərək, dinc müsəlman-türk əhalini qırıblar. Bunun da zirvə nöqtəsi 1918-ci il 31 Mart soyqırımı olub.

1918-1920-ci illərdə Azərbaycan torpaqlarının təxminən 9 min kvadratkilometr ərazisində Ararat Respublikasının yaradıldığını xatırladan deputat deyir ki, daşnakların hakimiyyətdə olduğu illərdə bu respublikanın ərazisi genişləndirilərək, qısa müddətdə 12 min kvadratkilometrə çatdırılıb: "Ermənilərdən başqa digər bütün millətlər isə vəhşicəsinə qovulub. Onların içərisində azərbaycanlılarla bərabər, ruslar, yəhudilər və kürdlər də olub. Çarizm 1917-ci ilin fevralında süquta uğrayıb yerinə müvəqqəti hökumət gəlsə də, yenə əvvəlki siyasət davam etdirilib. Daşnak Ermənistanın da o siyasəti daha kəskin formada irəliyə aparılıb. Xarici ölkələrdən ermənilərin gətirilməsi sovet dövründə də planlı şəkildə həyata keçirilib. Bununla bağlı rəsmi sənədlər və qərarlar var. Məsələn, 1923-cü ildə İraqdan - Mosuldan 8 min erməni gətirilərək Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsinə yerləşdirilib. Ermənilərin köçürülməsi işi 1920-30-cu illərdə də davam etdirilib".

### Bu gün Azərbaycan torpaqlarında heç bir erməni separatçısı yoxdur

A.İsgəndərov qeyd edir ki, I Pyotrdan sonra da ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi ilə bağlı II Yekaterinanın arzu və istəkləri olub: "O, hətta Albaniya erməni dövləti yaratmaq fikrinə düşmüşdü. Ona görə də general Zubovu bu ərazilərə göndərərək Çarqrad şəhərinin əsasını qoymağı tapşırmışdı. Amma II Yekaterinanın ölümü hər şeyi yarımçıq qoydu".

Tarixçi vurğulayır ki, ermənilərin bu ərazilərə köçürülməsi I Pyotrun dövründə kütləvi hal ala bilməsə də, 1813-cü və 1828-ci illərdə imzalanan iki müqavilə ilə, xüsusən Türkmənçay sazişinin 15-ci bəndinə görə, ermənilər Azərbaycan torpaqlarında rahat məskunlaşa bilərdilər. O zaman general Lazaryev ermənilərə müraciətdə deyirdi ki, onlara təzə vətən tapıb. Bu təzə vətən isə Naxçıvan, Qarabağ və Qərbi Azərbaycan torpaqlarıdır.

M.Qasımlı bildirir ki, İkinci Dünya müharibəsindən sonra ermənilərin Ermənistana köçürülməsi ilə bağlı rəsmi qərarlar qəbul edilib. 1945-ci ildə Ermənistanda sovet hakimiyyətinin qurulmasının 25 illiyi münasibətilə SSRİ Xalq Komissarları Sovetinin sədri Stalinin imzası ilə bu barədə qərar qəbul edilib. Sonrakı illərdə də belə sənədlər imzalanıb. Bununla bağlı Ermənistan rəhbərliyinin Moskvaya məktubları var. Onlar yazırdılar ki, Ermənistana xaricdən ermənilər gətirilsin. Onlar istəyirdilər ki, Ermənistan ərazisində olan azərbaycanlılar köçürülsün, evlərinə və təsərrüfatlarına xaricdən gələn ermənilər yerləşdirilsin. Həmin plan həyata keçirildi. SSSİ Nazirlər Soveti 1947-ci il dekabrın 23-də Ermənsitan SSR-dən azərbaycanıların köçürülməsinə dair qərar qəbul etdi. Həmin sənədə uyğun olaraq azərbaycanlılar planlı şəkildə deportasiya edildi. Bununla bağlı yüzlərlə arxiv sənərdləri var, bu sənədlərdə Ermənistanda hansı şəhərə, hansı rayona, hansı xarici ölkədən nə qədər erməninin köçürülməsinə dair dəqiq məlumatlar öz əksini tapıb.

Sədr müavini qeyd edir ki, 1950-ci illərdə ermənilərin xaricdən köçürülməsi dayandırılsa da, sonradan Nikita Xruşşov buna icazə verib. Beləliklə, ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi davam etdirilib. Bu proses bütün sovet dövrü ərzində baş tutub. "1985-ci ildə Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Karen Dəmirçyan Sovet İttifaqı Mərkəzi Komitəsi katibliyinə bir məktub yazıb. Həmin məktubda xaricdən ermənilərin köçürülməsi təklifi irəli sürülüb. O sənəddə açıq şəkildə qeyd olunurdu ki, sovet dövründə Ermənistan SSR ərazisinə xarici ölkələrdən təqribən 230 min erməni gətirilib. Çar məmuru Nikolay Şavrov isə yazırdı ki, Qafqazda olan 1 milyon 300 min erməninin 1 milyon nəfərinin yerli əhaliyə heç bir aidiyyəti yoxdur, bizim tərəfimizdən köçürülmüşdür. K.Dəmirçyan həmçinin bildirirdi ki, 230 min erməni sovet dövründə Ermənistana gətirilib.

M.Qasımlı bildirir ki, demoqrafik inkişaf nəzəriyyəsinə əsasən, bu gün Ermənistanda yaşayan 3 milyona yaxın əhalinin, demək olar ki, əksəriyyətinin yerli əhaliyə heç bir aidiyyəti yoxdur: "İndi Ermənistan adlanan ərazinin yerli əhalisi olan azərbaycanlılar sonuncu dəfə 1988-ci ildən sonra öz doğma torpaqlarından vəhşicəsinə deportasiya olunublar. Ermənilər heç vaxt bu regionda qurucu və birləşdirici olmayıb. Onlar Cənubi Qafqazın mədəniyyət yaradan xalqı deyillər, sonradangəlmədirlər və özləri ilə regiona kin-küdurət, qan və terror gətiriblər.

Elşad Mirbəşiroğlu deyir ki, bu gün Prezident İlham Əliyevin strateji baxışları, onun iradəsi, ordumuzun şücaəti, xalqın birliyi sayəsində Azərbaycan tarixi ədaləti bərpa edib. Torpaqlarımız işğalçılardan tam təmizlənib. Bundan sonra ermənilərin xalqımıza qarşı 300 illik soyqırımı siyasətini həyata keçirmək imkanı olmayacaq. Bu məsələ köklü şəkildə həll olunub. Bundan sonra siyasi, diplomatik müstəvidə mövqelərimizi daha da möhkəmləndirəcəyik. Azərbaycan regionda təhlükəsizlik missiyasını öz çiyinlərində daşımaq gücünü də nümayiş etdirir. Beynəlxalq reytinq göstəricilərinə əsasən, Azərbaycan Ordusu 29-cu yerdə qərarlaşıb. Bu, bir daha göstərir ki, Azərbaycan real hərbi gücə malikdir. Bununla yanaşı, iqtisadi, siyasi gücümüz bundan sonrakı mərhələdə xalqımıza qarşı yönələcək istənilən düşmənçilik meyillərinin qarşısını yerində və zamanında ala bilməyə imkan verəcək.

Bəli, 300 illik tarix də sübut edir ki, ermənilər iddia etdikləri kimi nə bu ərazilərdə əvvəlcədən mövcud olublar, nə də bu torpaqlar onların olub. Çar və sovet Rusiyasının öz planlarını həyata keçirmək məqsədilə başlatdıqları bu köçürülmə prosesi zamanla genişlənərək regionun bəlasına çevrilib. Amma artıq Azərbaycan torpaqlarında heç bir erməni separatçısı yoxdur. 44 günlük Vətən müharibəsi və birgünlük antiterror tədbirləri ilə Prezident İlham Əliyevin müzəffər komandanlığı sayəsində Azərbaycan Ordusu torpaqlarımızı terrorçulardan təmizləyərək ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa edib. İkiəsrlik tarixdə ilk dövlət başçısıdır ki, tarixi ədaləti bərpa edib. Güclü liderə, orduya malik olan Azərbaycanda bundan sonra heç bir erməni separatçısı, terrorçusu at oynada bilməyəcək. Bunu artıq Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycan öz gücü, iradəsi, yürütdüyü müstəqil siyasəti ilə sübut edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



## Azərbaycan tarixinə dair qısametrajlı filmlərin təqdimatı keçirilib

**Diasporla İş üzrə Dövlət Komitəsində "Azərbaycan tarixi" ("History of Azerbaijan") layihəsinə daxil olan qısametrajlı filmlərin təqdimat mərasimi keçirilib.**

Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə Azərbaycanın Dövlət himni səsləndirilib, şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Sonra çıxış edən Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov bildirib ki, bu gün Prezident İlham Əliyevin tapşırıqları əsasında diaspor fəaliyyəti daha da genişlənib və Azərbaycan diasporu uğurlu layihələr həyata keçirir.

"Ölkəmizin mədəniyyətinin təbliği ilə bağlı qeyd etməliyik ki, milli-mədəni və mənəvi dəyərlərimizin qorunub saxlanılmasında, onların bütün dünyada təbliğ olunmasında Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun gördüyü işlər dövlətimiz, xalqımız üçün böyük töhfədir. Xaricdəki Azərbaycan icmaları da bu sahədə beynəlxalq layihələr həyata keçirir və dövlətimiz diaspor təşkilatlarının layihələrinə dəstək verməyi prioritet məsələlər kimi görür", - deyə komitə sədri əlavə edib.

Sonra "Azərbaycan tarixi" ("History of Azerbaijan") layihəsinin təqdimat videosu, "Dəmir Yumruq - Vətən müharibəsi", "Azərbaycanda qədim dinlər və multikulturalizm" filmi, eləcə də "Əkinçi" qəzeti haqqında film nümayiş olunub.

"Vətən" Azərbaycan İncəsənət və Mədəniyyət Mərkəzinin rəhbəri Lalin Həsənova Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında belə layihələrin vacibliyini vurğulayıb və filmin yaradıcı heyətinə, həmçinin Diasporla İş üzrə Dövlət Komitəsinə minnətdarlıq edib. O, növbəti layihənin azyaşlı uşaqlar üçün animasiya filmlərinin istehsalı ilə bağlı olduğunu diqqətə çatdırıb.

Bakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Milix Yevdayev, Azərbaycanın Milli Qəhrəmanı Şirin Mirzəyevin həyat yoldaşı Flora Qasımova, layihənin iştirakçısı Zamiq Əliyev və başqaları belə filmlərin Azərbaycan tarixinin, mədəniyyətinin təbliğində böyük əhəmiyyət daşıdığını dilə gətiriblər.

Hazırlanan filmlər tədris vəsaiti kimi xaricdəki həftəsonu Azərbaycan məktəblərinin proqramına daxil edilib, eyni zamanda müxtəlif ölkələrdəki icma tədbirlərində nümayiş olunur.

Qeyd olunub ki, 16 qısametrajlı filmdən ibarət olan "Azərbaycan tarixi" ("History of Azerbaijan") layihəsi Diasporla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Diasporuna Dəstək Fondunun dəstəyi, "Vətən" Azərbaycan İncəsənət və Mədəniyyət Mərkəzi və ELTV Media Qrupunun birgə təşkilatçılığı ilə Kanadada ərsəyə gətirilib.

# Ədliyyə naziri Ağdamda vətəndaşların müraciətini dinləyib

**Ədliyyə naziri Fərid Əhmədov Ağdam rayonunun Quzanlı qəsəbəsində vətəndaşların müraciətlərini dinləyib.**



Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, nazir Ümummilli Lider Heydər Əliyevin rayondakı abidəsini ziyarət edib və önünə gül dəstəsi düzüb.

Qəbulda Ağdam, Tərtər, Ağcabədi, Bərdə və Laçın rayon sakinlərinin ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

# "Yüksəliş" müsabiqəsi tərəfindən Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş intellektual yarış keçirilib

**Dekabrın 7-də "Yüksəliş" müsabiqəsi tərəfindən Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş intellektual yarış keçirilib. Yarış müsabiqənin qalibləri, finalçıları və yarımfinalçıları arasında təşkil edilib.**



AZƏRTAC xəbər verir ki, "Yüksəliş" kvizinin qış mövsümündə 43 komanda tərkibində ümumilikdə 252 iştirakçı mübarizə aparıb. Gərgin və maraqlı mübarizə nəticəsində birinci yerə "White Walkers" komandası layiq görülüb. İkinci yerin qalibi "NeveRest", üçüncü yerin sahibi isə "Se7en" komandaları olub.

"Yüksəliş" müsabiqəsi dördüncü dəfədir ki, qaliblər, finalçılar və yarımfinalçılar arasında intellektual yarış keçirdir. Qeyd edək ki, bu ilin payız mövsümündə baş tutan "Azərbaycanın Yüksəlişi" intellektual kvizi Azərbaycanın Dövlət Müstəqilliyinin Bərpası Gününə, bahar mövsümündə keçirilən kviz "Yaşıl dünya naminə həmrəylik ili"nə, ötənilki yarış isə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmişdi.

Xatırladaq ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Prezidentinin 2019-cu il 26 iyul tarixli sərəncamına əsasən təsis olunub. Müsabiqənin məqsədi 21-51 yaş aralığında olan, intellektual səviyyəsi yüksək və azı iki il idarəçilik təcrübəsinə malik perspektivli rəhbər şəxslərin müəyyənləşdirilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etməkdir.

"Yüksəliş" müsabiqəsinin qalibini bir il ərzində idarəçi rəhbərlərdən - böyük şirkətlərin top-menecerlərindən və dövlət orqanlarının rəhbərlərindən fərdi karyera məsləhətləri almaq imkanı və 20 min manat məbləğində pul mükafatı gözləyir.

# Rəqəmlər nədən xəbər verir

## ◆ Demoqrafiya

**Başa çatmaqda olan 2024-cü il demoqrafiyamızda da öz əksini bir sıra fakt və rəqəmlərdə tapır. Onlar göstərir ki, il ərzində sayımız neçə nəfər artdı, neçə cütlük toy-büsat qurdu. Neçə əzizimiz dünyasını dəyişdi. Azərbaycana daimi yaşamaq üçün neçə nəfər gəldi və əksinə, ölkəmizdən biryolluq köçüb-gedənlərin sayı neçə nəfər oldu.**

Doğrudur, il hələ tamamlanmayıb. Lakin Dövlət Statistika Komitəsinin yanvar-sentyabr ayları üzrə açıqladığı rəqəmlər ilin demoqrafik mənzərəsini yarada bilir. Ölkə əhalisinin sayı ilin əvvəlindən 33 min 671 nəfər - 0,3 faiz artıb və beləliklə, oktyabr ayının 1-i vəziyyətinə 10 milyon 214 min 441 nəfərə çatıb. Əhalinin 49,8 faizini kişilər, 50,2 faizini qadınlar təşkil edir.

54,5 faizi şəhərlərdə yaşayan, 45,5 faizi kənd sakinləri olan əhalinin regionlar üzrə məskunlaşmasının coğrafiyası da maraq doğurur. Belə ki, əhalinin 4,6 faizi Naxçıvan Muxtar Respublikasında, 23 faizi Bakı şəhərində yaşayır. Əhalinin qalan hissəsinin məskunlaşması belədir: Lənkəran-Astara - 9,2 faiz, Abşeron-Xızı - 8,6 faiz, Qarabağ - 7,3 faiz, Mərkəzi Aran - 7,1 faiz, Qazax-Tovuz - 6,7 faiz, Şəki-Zaqatala - 6,1 faiz, Gəncə-Daşkəsən - 5,9 faiz, Quba-Xaçmaz - 5,4 faiz, Mil-Muğan - 5,2 faiz, Şirvan-Salyan - 4,9 faiz, Dağlıq Şirvan - 3,1 faiz, Şərqi Zəngəzur - 2,9 faiz.



Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri 9 ay ərzində ölkədə 77 min 172 körpənin doğulduğunu bildiriblər. Əhalinin 1000 nəfərinə bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,2-dən 10,1-ə düşüb. Doğulan uşaqlar arasında oğlanların sayı yenə də üstünlük təşkil edir. Nisbət belədir: 53 faiz oğlanlar, 47 faiz qızlar.

İlin əvvəlindən 1257 ailə eyni vaxtda iki, 34 ailə isə üç övladla sevinib. Yeni doğulan körpələrin 2514-ü əkiz, 102-si üçəmdir.

Doğumun səviyyəsinə görə əhalinin hər 1000 nəfərinə hesabı ilə öndə olan 12,7 faizlə Dağlıq Şirvan, 12 faizlə Lənkəran-Astara, 11,9 faizlə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarıdır. Sonrakı yerlərdə Quba-Xaçmaz (11,8 faiz), Mil-Muğan (11,5 faiz), Mərkəzi Aran və Şirvan-Salyan (11,2 faiz), Qazax-Tovuz (11,1 faiz) dayanır. Bir daha xatırladaq ki, ölkə üzrə bu göstərici 10,1-dir.

Rəqəmlərdən biri də 9 ayda baş verən ölüm hallarının sayını göstərir: 43 min 932 nəfər. Əhalinin hər 1000 nəfərinə düşən göstəriciyə görə, ölümün səviyyəsi 5,9-dan 5,7-yə enib.

Prezident İlham Əliyev "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" deyir. Bu sözlərin arxasında Azərbaycan xalqının gündən-günə yüksələn rifah halını, dövlətin öz vətəndaşına sonsuz qayğısını ifadə edən böyük bir həqiqət dayanır. Bu həqiqəti bir çox fakt təsdiqləyir ki, onlardan biri də məhz ölüm hallarının azalmasıdır. Ötən müəyyən dövr ərzində koronavirus pandemiyası və erməni cəlladlarının cinayətləri nəticəsində yarımçıq qırılan ömürləri istisna etməklə, son illər ölkədə, ümumiyyətlə, ölümün səviyyəsi aşağı düşür, yaxud sabit qalır. Bunun səbəblərindən biri, əlbəttə ki, insanın gün-güzəranının yaxşılaşmasıdır. Bu mənada əhalinin gəlirlərinin çoxalması, əməkhaqqının getdikcə yüksəlməsi, pensiya və müavinətlərin artması böyük rol oynayır.

Azərbaycan vətəndaşının sağlamlığının qorunması dövlətin qarşıya qoyduğu ən mühüm vəzifələrdən biridir. Təsadüfi deyil ki, son illər əhaliyə göstərilən tibbi xidmətin səviyyəsi xeyli yüksəlib, müayinələrin sayı artıb, xəstələrin dərmanla təchizatı əhəmiyyətli dərəcədə yaxşılaşıb. Dövlət büdcəsində səhiyyənin inkişafına ayrılan vəsaitin məbləği ilbəil artır. Ölkədə yeni müasir müalicə ocaqları inşa edilib və əvvəlkilər yenidən qurulub, tibbi sığorta tətbiq olunub.

Bütün deyilənlərlə yanaşı, insanı yaşadan digər amillər də var. Bunlar xalqımızın milli-mənəvi dəyərləridir. Çətin gündə bir yerdə olmaq, bir-birinin dərdinə şərik çıxmaq, xoş hadisələr baş verəndə sevinci bölüşmək, yaşa dolmuş valideynlərə övladların qayğısı ömrü uzadan amillər sırasındadır.

Bu ilin yanvar-sentyabr aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 36 min 651 nikah və 15 min 964 boşanma qeydə alınıb. Təəssüf doğuran haldır ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 5,1-dən 4,8-ə düşüb. Daha çox toy Şərqi Zəngəzur (5,7), Qarabağ (5,6), Dağlıq Şirvan (5,5), Mil-Muğan (5,3), Lənkəran-Astara (5,2), Şirvan-Salyan (5), Bakı şəhəri, Naxçıvan Muxtar Respublikası və Qazax-Tovuz (4,9) iqtisadi rayonlarında çalınıb. Bu rayonlarda nikaha daxilolma səviyyəsi ölkə göstəricisindən (4,8) yüksək olub.

Boşanmaların sayı dəyişməyərək eyni səviyyədə (2,1) qalıb. Bu isə o deməkdir ki, boşanma halları səngimək bilmir. Dağılan ailələrin, atalı-analı ikən boynubükük qalan körpələrin sayı azalmır.

Miqrasiya saldomuz isə həmişə olduğu kimi müsbətdir. Belə ki, 2024-cü ilin 9 ayı ərzində Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün Azərbaycana 2218 nəfər gələn, Azərbaycandan isə 1787 nəfər gedən qeydə alınıb, ölkə üzrə 431 nəfərlik müsbət miqrasiya saldosu yaranıb.

Deməli, insanlar üçün Azərbaycanda yaşamaq və işləmək xoşdur ki, bu da ölkəmizin hərtərəfli inkişafı ilə bağlıdır. Yeri gəlmişkən, qeyd edək ki, bunu COP29-da qonağımız olan minlərlə insan da gördü və yeri gəldikcə vurğuladı.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# GDU-da dövlət qulluğunun üstünlüklərindən danışılıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) əməkdaşları Gəncə Dövlət Universitetində "Dövlət qulluğunun üstünlükləri, cari vəziyyət və perspektiv planlar" mövzusunda tədbir keçirmişlər.**



Tədbirdə rektorun baş müşaviri Asif Cavadov, Təcrübə və karyera şöbəsinin müdiri Cabbar Qarayev, ƏƏSMN-in Dövlət qulluğu və kadr məsələləri şöbəsinin əməkdaşları - Rauf Əliyev, Elşad Əliyev, Xalid Məmmədov və universitetin tələbələri iştirak etmişlər.

Asif Cavadov dövlətimizin gənclər siyasətindən, gənc mütəxəssislərə yaradılan şəraitdən və ali təhsil müəssisələrində dövlət qulluğunun üstünlükləri ilə bağlı maarifləndirmə işinin həyata keçirilməsinin əhəmiyyətindən danışdıqdan sonra söz ƏƏSMN-in əməkdaşlarına verilmişdir. Onlar Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Məşğulluq strategiyasının həyata keçirilməsinə dair 2020-2025-ci illər üçün Tədbirlər Planı"nda dövlət qulluğunun təbliği və təşviqi istiqamətində görülən işlərdən, bu sahədə təsdiq edilmiş layihələrdən söz açmışlar.

Sonra dövlət qulluğuna qəbul qaydaları, vakant vəzifələrin tutulmasının ümumi şərtləri, dövlət qulluğuna dair elektron xidmətlər barədə məlumat verilmişdr.

Tədbir dövlət qulluğuna qəbulla bağlı tələbələrin suallarına aydınlıq gətirilməsi ilə başa çatmışdır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Makron Fransanı fəlakətə sürükləyir

**Emmanuel Makronun yürütdüyü yarıtmaz siyasət nəticəsində hazırda Fransa dərin böhranın astanasındadır. Dövləti öz avantürist ideyalarının arxasınca sürükləyən Makronun başı digər ölkələrin daxili işlərinə burun soxmağa, müstəmləkə altındakı xalqların azadlıq səslərini boğmağa o qədər qarışıb ki, Fransanın daxili siyasətini tənzimləmək belə yadından çıxıb. Nəticədə Fransa böhrana sürüklənib, beynəlxalq nüfuzu ayaqlar altına düşüb, büdcəsiz və hökumətsiz ölkəyə çevrilib.**



## Hökumət böhranı dərinləşir

Ötən çərşənbə günü Fransa Milli Assambleyasında onilliklərdən sonra görünməmiş səsvermə nəticəsində baş nazir Mişel Barniye istefaya məcbur edildi və bununla da ölkə siyasi və büdcə qeyri-müəyyənliyinə sürükləndi, faktiki olaraq Barniye hökumətinə son qoyuldu. Ancaq hələ də siyasi yaramazlıqlarla məşğul olan Makron hesab edir ki, onun istefasına çağırışlar "məntiqsiz"dir. Amma Fransanın yarıtmaz 25-ci prezidentinin nə düşündüyündən asılı olmayaraq, reallıqlar başqa şey deyir. Artıq Fransada vəziyyətin gündən-günə ağırlaşdığını bütün dünya görür və bu gerçəyi Makron hökuməti daha ört-basdır edə bilmir. Amma bununla məşğul olmaq əvəzinə bir əli Ermənistanı silahlandıraraq Cənubi Qafqazda müharibə ocağı qalamaq istəyən Makron, digər əli ilə Fransanın müstəmləkəsi altında inləyən xalqların azadlıq səslərini boğmağa çalışır. Makron hakimiyyətinin müstəmləkə siyasətinə qarşı mübarizə apararaq haqq səslərini ucaldanlara qarşı isə zor tətbiq edilir, qan tökməkdən belə çəkinilmir.

Kolonializm siyasətini günümüzdə də davam etdirməsindən utanmayan Makron hökuməti törətdiyi vəhşiliklərə görə üzr istəmək əvəzinə digər ölkələrdə uydurma etnik təmizləmələrdən danışır.

Azərbaycan bütün beynəlxalq platformalarda kolonializmə qarşı aktiv mübarizə aparır, XXI əsrdə də müstəmləkəçi siyasət yürüdən Fransanı ifşa edir. Müstəmləkə altında olan ölkələrin nümayəndələri Bakı Təşəbbüs Qrupu (BTQ) ətrafında birləşərək azadlıq səslərini dünyaya çatdırırlar.

Ölkəmizin sədrliyi dövründə Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 2023-cü il iyulun 6-da Bakıda "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" adlı konfransın iştirakçıları tərəfindən Bakı Təşəbbüs Qrupu yaradılıb. Qrup müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq uğrunda apardıqları ədalətli mübarizəyə dəstək verir. İndiyədək BTQ kolonializmə aid 22 tədbir keçirib. 3 memorandum imzalanıb.

## Bir adanın səsi

Keçən cümə günü BTQ-nin təşkilatçılığı ilə Fransa və Niderlandın müstəmləkəçiliyi altındakı Sen Martin adasına həsr edilmiş beynəlxalq konfransın keçirilməsi də bu baxımdan mühüm oldu.

"Sen Martində Fransa və Niderland müstəmləkəçiliyi - bir ada, bir xalq, bir tale" adlı konfransda müstəmləkəçiliyə qarşı mübarizə aparan və azad olmağa çalışan Sen Martin xalqının təmsilçiləri, habelə müstəmləkəçilik əleyhinə fəaliyyət göstərən təşkilatların, qeyri-hökumət təşkilatlarının rəhbərləri, parlament üzvləri, hüquq müdafiəçiləri, dekolonizasiya üzrə ekspertlər və tədqiqatçılar iştirak ediblər.

Sen Martin parlamentinin üzvü Franklin Meyers bildirib ki, istər Fransanın, istərsə də Niderlandın müstəmləkəçiliyindən qurtularaq müstəqil olmaq xalqlarımızın ən müstəsna hüququdur.

"One Saint Martin" Assosiasiyasının prezidenti Rhoda Arrindell "Sen Martində ikili müstəmləkəçilik irsi" adlı təqdimatla çıxış edib. O, müstəmləkəçiliyin nəticələrinin aradan qaldırılmasının vacibliyini vurğulayaraq, Sen Martin xalqının birliyinə və müstəqilliyinə çağırış edib.

Beynəlxalq tədbirdə Sen Martinə həsr olunmuş "Bir adanın səsi" adlı debat təşkil edilib. Bildirək ki, Sen Martin adası həm Fransa, həm də Niderland tərəfindən müstəmləkə edilib və 1648-ci ildən bəri bu iki dövlət arasında bölünüb. Adanın Fransa müstəmləkəsi altında olan hissəsi "Saint-Martin", Niderland müstəmləkəsi altında olan hissəsi isə "Sint Maarten" adlanır. Bu iki imperiya adanın idarəçilik, mədəniyyət və hüquq sistemlərini özlərindən asılı vəziyyətə salıb.

Azərbaycan artıq müstəmləkəçiliyə qarşı qlobal mübarizə mərkəzinə çevrilib. Bakı Təşəbbüs Qrupu vasitəsilə əsarətdəki xalqların azadlıq səsi dünyaya çatdırılır. Yarıtmaz siyasəti ilə Fransanı uçuruma aparan Makron hökuməti isə nə qədər çalışsa da, bu haqq mübarizəsinin qarşısını almağa qadir deyil.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Aİ-də ən aşağı doğum səviyyəsi qeydə alınıb

**İnsanlar uşaq sahibi olmağı gecikdirdikcə, Avropada anaların orta yaşı da artır.**

Son statistika göstərir ki, Avropa İttifaqı tarixdə doğuşun ən böyük illik azalmasını yaşayıb - 5,5 faiz.

"Eurostat"ın məlumatına görə, Aİ-yə üzv ölkələrdə doğulanların sayı 2022-ci ildəki 3879509-dan 2023-cü ildə 3665142-yə düşüb.

2023-cü ildə Aİ-də doğum nisbəti "Eurostat"ın uzunmüddətli demoqrafik proqnozlarında hədəflənmiş 4 milyonluq gözləntidən xeyli az olaraq, son 10 ilin ən aşağı göstəricisidir.

Mütəxəssislər azalmanın iqlim dəyişikliyi ilə bağlı narahatlıqlar, pandemiya və son illərdə inflyasiyanın ən yüksək artımı kimi amillərlə bağlı ola biləcəyini irəli sürürlər. BMT-nin əhali üzrə məsul əməkdaşı Quanyuy Çjanın dediyinə görə, Aİ sakinlərinin uşaq sahibi olub-olmamaq qərarlarına gələcəklə bağlı qeyri-müəyyənlik, yaşayış və mənzil qiymətlərinin artması, həmçinin bir çox qlobal böhran, o cümlədən koronavirus pandemiyası, geosiyasi gərginliklər və iqlim dəyişikliyi təsir edə bilər.

Təşkilatın məlumatına görə, Avropanın bir sıra ölkələrində 2023-cü və 2024-cü illərdə hər 1000 nəfərə düşən doğum səviyyəsi ən aşağı olub. 2024-cü ildə ən aşağı orta doğum səviyyəsi 1000 nəfərə 6,5 doğuşla İtaliyada, ən yüksək göstərici isə 10,5 ilə Kiprdə qeydə alınıb.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) xəbərdarlıq edir ki, ölkələr öz siyasətlərini yeni "aşağı məhsuldar gələcəyə" uyğunlaşdırmalıdırlar.

İƏİT təmsilçilərinin fikrincə, miqrasiya və inteqrasiyaya proaktiv yanaşma, habelə təmsil olunmayan qrupların məşğulluğa çıxış imkanlarının yaxşılaşdırılması bu problemin həllinə kömək edəcək.



## Gecikmiş valideynlik hansı problemlər yaradır?

Mərkəzi, Şərqi və Qərbi Avropada proqnozlaşdırılan doğum əmsalı 2050-ci və 2100-cü illər üçün orta dünya səviyyəsindən aşağıdır. Əgər 2013-cü ildə anaların ən böyük qrupu 25-29 yaş arası qadınlar idisə, 2023-cü ilə qədər bu qrupa 30-34 yaş arası qadınlar daxildir.

Eyni zamanda Birləşmiş Millətlər Təşkilatı bildirir ki, əksər Avropa ölkələrində əhalinin sayı artıq pik həddinə çatıb. BMT həmçinin xəbərdarlıq edir ki, 65 və daha yuxarı yaşda olan insanların nisbətinin və sayının artması səhiyyə və sosial müdafiə sistemlərinin, eləcə də bütün yaş qruplarından olan insanlar üçün ədalətli və inklüziv cəmiyyətlər yaratmaq naminə milli siyasətin inkişafını və gücləndirilməsini tələb edir.

Doğum nisbətinin azalması tendensiyası ən çox Yunanıstan, İtaliya, İspaniya, Polşa, Finlandiya və Baltikyanı ölkələrdə özünü göstərir. Bu ölkələrdə göstərici son on ildə ən azı dörddə biri qədər azalıb.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*





# Mədəniyyət





● C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi - 90

# Burada ziyarətçilərə maddi-mənəvi abidələrimiz təqdim olunur

**Son illər ölkəmizdə mənəvi irsin və maddi-mənəvi abidələrimizin dünyaya tanıdılmasına xüsusi diqqət yetirilir. Bu işlərdə 90 il bundan öncə yaradılmış C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin xidmətləri böyükdür. Muzey Zaqafqaziyada və Yaxın Şərqdə öz profilinə görə yaradılan ilk və yeganə mədəniyyət müəssisəsidir.**



Yubiley ili ərəfəsində qəzetimizin əməkdaşı muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Sevinc Mikayılova ilə görüşmüşdür. Direktor muzeyin yaradılmasından, tarixi fəaliyyətindən və görülən işlərdən söhbət açaraq demişdir:

- C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi 1934-cü ildə yaradılmışdır. Muzeyin yaradıcısı və ilk direktoru Bakı Teatr Texnikumunun ozamankı pedaqoqu, Bakı Türk İşçi Teatrının əməkdaşı Ağakərim Şərifov olmuşdur. O, 1924-cü ildə texnikumun məzunları ilə Moskvada olarkən bu böyük şəhərdə fəaliyyət göstərən A.A.Baxruşin adına Teatr Muzeyini ziyarət etmişdir. Sərgilənən eksponatlarla tanışlıqdan həvəslənən və bu işə daxilində böyük maraq oyanan Ağakərim Şərifov muzeyin ozamankı direktoru Aleksandr Baxruşinlə görüşüb muzey işini sistemləşdirməyi ondan öyrənmişdir.

Bakıya qayıtdıqdan sonra Ağakərim Şərifov Xalq Maarif Komissarlığı qarşısında məsələ qaldıraraq Bakıda da belə bir muzeyin yaradılmasını xahiş edir. Təşəbbüs müsbət qarşılanır. Az bir vaxtda Tağıyev Teatrının (indiki Akademik Musiqili Teatr) foyesində Sidqi Ruhullanın şəxsi arxivindən ibarət teatr tarixini əks etdirən ilk sərgi təşkil olunur. Bu nəcib işdə Azərbaycanın görkəmli ziyalı və maarifçilərindən Üzeyir bəy Hacıbəyli, Əbdürrəhim bəy Haqverdiyev, Cəfər Cabbarlı, Əzim Əzimzadə, Əziz Şərif və digər sənət korifeyləri də Ağakərim Şərifova yaxından dəstək olurlar.

1927-ci ildə Xalq Komissarlığı Teatr Muzeyinin yaradılması barədə qərar çıxarır və hətta bu məqsədlə teatra aid sənədlərin toplanması və təhvil verilməsi barədə ictimaiyyətə müraciət edir. Muzeyin açılışında Əbdürrəhim bəy Haqverdiyev böyük qürur hissi ilə "Yaşasın Azərbaycan teatrı!" ifadələrini işlədərək lenti kəsir. Bu minvalla iş bir müddət davam edir və çox keçmir ki, Teatr Muzeyi dövlət muzeyinin (indiki Milli Tarix Muzeyi) nəzdində şöbə kimi fəaliyyət göstərməli olur. 1934-cü il noyabrın 25-də muzey Xalq Maarif Komissarlığının qərarı ilə yenidən yaradılır və dövlət statusu ilə fəaliyyətə başlayır. Görkəmli dramaturq Cəfər Cabbarlının 1935-ci ildə vaxtsız vəfatından sonra onun milli teatrda göstərdiyi xidmətləri nəzərə alınaraq muzeyə ədibin adı verilir. Bundan sonra muzey müxtəlif zaman kəsimlərində müxtəlif ünvanlarda fəaliyyət göstərməyə başlayır.






Muzeyin yaradıcısı Ağakərim Şərifovun ölümündən sonra müxtəlif dövrlərdə muzeyə Sabit Rəhman, Sona xanım Cabbarlı, Turan xanım Cavid, daha sonra Nuridə Nurullayeva rəhbərlik etmişlər. Onların hər biri muzeyin zənginləşdirilməsi istiqamətində səmərəli işlər görmüşlər.

Bu gün muzeyin əsas fondunda 140 mindən çox eksponat mühafizə olunur. Bunlar arxiv-memuar, foto-neqativ, eskiz-maket, fonoteka kolleksiyaları üzrə bölünüb. Kolleksiyalar milli teatrın yaranma tarixini, inkişaf yollarını, teatr korifeylərimizin həyat və yaradıcılığını özündə əks etdirir. Fondda qorunan materialların böyük əksəriyyəti orijinaldır.

Azərbaycan peşəkar teatrının yarandığı dövrdən bu günə qədər oynanılan tamaşaların proqram və afişaları, müxtəlif kadrları əks etdirən foto və neqativlər, teatr rəssamlarının tamaşalara çəkdikləri geyim və dekorasiya eskizləri, aktyorların səhnə geyimləri, rejissor eksplikasiyaları, teatr korifeylərinin məktubları və digər əlyazmaları, müxtəlif sənətkarların memorial əşyaları və s. muzeyin fonduna daxildir. Muzeydə Cəfər Cabbarlının, SSRİ Xalq artistləri Mərziyə Davudovanın, Ədil İskəndərovun, Mehdi Məmmədovun, Sidqi Ruhullanın, Mirzağa Əliyevin, Ələsgər Ələkbərovun, Hökumə Qurbanovanın, Şəmsi Bədəlbəylinin, Həqiqət Rzayevanın, Möhsun Sənaninin, Barat Şəkinskayanın, Xalq rəssamları Kazım Kazımzadənin, Ənvər Almaszadənin, Bədurə Əfqanlının və başqalarının şəxsi arxivləri qorunur.

S.Mikayılova daha sonra vurğuladı ki, Teatr Muzeyi milli peşəkar teatrımızın tarixinə dair sənədləri qorumaqla yanaşı, mədəniyyətimizin inkişafına xidmət edən bir sıra layihə və tədbirlər həyata keçirərək səhnə sənətimizin təbliği ilə də məşğul olur: "Bunların sırasında çoxsaylı elmi-praktik konfransı, "dəyirmi masa", teatr korifeylərinə, çağdaş teatrımızın görkəmli sənətkarlarına həsr olunmuş yubiley tədbiri və xatirə gecələrini, uşaq və gənclər üçün maarifləndirici ustad dərslərini, o cümlədən sağlamlıq imkanları məhdud olan uşaq və əlillər üçün nəzərdə tutulan digər işləri sadalaya bilərik. Muzey respublika əhəmiyyətli bir sıra dövlət tədbirlərində, şəhərimizdə keçirilən beynəlxalq konfranslarda kolleksiyamızda qorunub saxlanılan nadir eksponatlardan ibarət səyyar sərgilərlə də iştirak edir. Həmçinin TÜRKSOY Beynəlxalq Mədəniyyət Təşkilatının keçirdiyi tədbirlərdə iştirakçı qismində fəaliyyət göstərir".

Ölkənin ictimai-siyasi həyatındakı önəmli hadisələrin, əlamətdar günlərin də muzeydə daim qeyd edilməsi ənənə halını alıb.

Teatr Muzeyi yalnız yerli alimlərimiz üçün deyil, eləcə də ölkəmizdən kənarda fəaliyyət göstərən və Azərbaycan mədəniyyəti və incəsənətilə bağlı araşdırmalar aparan xarici tədqiqatçılara da tarixi sənədlərlə kömək göstərir. Muzeyin bir sıra beynəlxalq muzeylərlə sıx əməkdaşlığı var. Sevinc xanım bildirdi ki, Berlinin Etnoloğiya Muzeyində tarix və mədəniyyətimizi əks etdirən genişmiqyaslı sərgidə eksponatlarımız böyük uğurla sərgilənmişdir: "Eləcə də Gürcüstanın Tbilisi şəhərində yerləşən M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyinin və Nəriman Nərimanovun ev-muzeyinin, bir müddət Azərbaycanda çalışmış teatr rəssamı M.M. Tixomirovun vətəni olan Xarkovda İncəsənət Muzeyinin, Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının səhnəsində çox az müddətdə oynamış Faina Ranevskayanın Taqanroq şəhərində fəaliyyət göstərən ev-muzeyinin ekspozisiyalarının yaradılmasında, habelə aktyor B.Z.Molçanovla bağlı B.Q.Belinski adına Sverdlovsk Universal Elmi Kitabxanasına, rus yazıçısı Mixail Bulqakovun elmi biblioqrafiyasının hazırlanmasında Rusiya Dövlət İncəsənət Kitabxanasına muzeyimizin fond materialları ilə kömək göstərilib. Bu siyahını bir qədər də uzatmaq mümkündür.

İşğaldan azad olunmuş Qarabağda bərpa olunan muzeylərin ekspozisiyalarının qurulmasında da Qarabağəsilli sənətkarlarla bağlı muzeyimizin fondunda saxlanılan eksponatlarla kömək göstərilmişdir. Təsadüfi deyil ki, muzey 2004-cü ildə Azərbaycan Teatr Xadimləri İttifaqı tərəfindən "Azərbaycan teatr tarixinə dair materialların toplanılması və qorunmasına görə" nominasiyası üzrə "Qızıl Dərviş" mükafatına layiq görülüb".

Hazırda muzey bədii tərtibatın yenidən qurulması ərəfəsindədir. Artıq bir neçə ildir istifadəyə verilmiş Cəfər Cabbarlı zalı ədibin ev-muzeyi ilə Teatr Muzeyinin eksponatlarının birgə nümayişi əsasında qurulub. Bu zalda Cəfər Cabbarlının yaradıcılıq yolu təbliğ olunmaqla yanaşı, vaxtilə böyük dramaturqa hədiyyə edilmiş yadigar əşyalar da yer alıb. 1918-ci ildə Nuru Paşa tərəfindən ədibə hədiyyə edilmiş kəfkirli divar saatı, 1934-cü ildə rus yazıçısı Maksim Qorki tərəfindən bağışlanılmış patefon, ədibin şəxsi yazı masası, qələmdanı, portfeli, digər məişət əşyaları tamaşaçılarda böyük maraq doğurur. Xatırladaq ki, dünya ictimaiyyətinə maddi-mənəvi abidələrimizi tanıdan bu məkana gələnlərin sayı ilbəil artır.

Ötən ay Bakının evsahibliyi etdiyi COP29-un iştirakçıları - Amerika, İordaniya, Rusiya, Yaponiya, Türkiyə, Avstraliya, Braziliya, Almaniya, Misir və digər ölkələri təmsil edən nümayəndə heyətləri muzeyi ziyarət edərək xatirə kitabına gözəl rəylər yazmışlar.

Bu gün yaradılmasının 90 illik yubileyini qeyd edən Azərbaycan Dövlət Teatr Muzeyi milli teatr tariximizin ən dürüst və etibarlı bələdçisidir.

***Rəhman SALMANLI,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

## "Xalq şairi Nəbi Xəzri -100" adlı virtual sərgi istifadəçilərə təqdim edilib



**Milli Kitabxanada müasir Azərbaycan poeziyasının parlaq siması Nəbi Xəzrinin anadan olmasının 100 illiyi münasibətilə "Xalq şairi Nəbi Xəzri - 100" adlı virtual sərgi və geniş ənənəvi kitab sərgisi istifadəçilərə təqdim olunub.**

Kitabxanadan bildirilib ki, virtual sərgidə Nəbi Xəzri haqqında imzalanmış rəsmi sənədlər, fotolar, dövri mətbuatda dərc olunan məqalələr, şairin Azərbaycan və müxtəlif dillərdə əsərləri nümayiş olunur.

Ənənəvi kitab sərgisində könüllərdə gözəl şeirləri ilə yuva quran şairin əsərləri, redaktor olduğu, "Ön söz" yazdığı, tərcümə etdiyi, həyat yolu, fəaliyyəti və yaradıcılığı haqqında Azərbaycan və müxtəlif dillərdə ədəbiyyatlar, sözlərinə bəstələnmiş musiqi notları nümayiş olunur.

Sərgi bir həftə davam edəcək.

## "Mən Feyerbaxam" monotamaşası yenidən nümayiş olunacaq



**Dekabrın 18-də Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrında "Mən Feyerbaxam" monotamaşası yenidən nümayiş olunacaq.**

Teatrdan bildirilib ki, səhnə əsəri alman dramaturqu Tankret Dorstun eyniadlı pyesi əsasında hazırlanıb.

Birhissəli monotamaşada rolu Əməkdar artist Şövqi Hüseynov canlandıracaq. Psixoloji dram janrında qurulan tamaşanın bədii tərtibatçısı Şövqi Hüseynov, musiqi tərtibatçısı Zaur Rəşidov, işıq rəssamı Vadim Kuskov, fənd quruluşçusu İsa Əsədovdur.

"Mən Feyerbaxam" zahirən seçim imtahanı kimi görünsə də, daha dərindən bir aktyorun yaşadığı problemlərdən, bu problemlərlə mübarizəsindən və mübarizədəki tənhalığından bəhs edir.

## Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Londonda konsert keçirilib



**Londonda Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Azərbaycanın Xalq artisti Miri Yusifin konserti keçirilib.**

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı və Azərbaycanın Böyük Britaniyadakı səfirliyinin dəstəyi ilə təşkil olunan tədbirdə 400-dən çox qonaq iştirak edib.

Tədbirin sonunda Azərbaycanın Böyük Britaniyadakı səfiri Elin Süleymanov çıxış edərək Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün əhəmiyyətindən danışıb. O bildirib ki, Azərbaycan xalqının gücü onun birliyində və həmrəyliyindədir. Prezident İlham Əliyevin rəhbərliyi altında hər il daha da güclənən Azərbaycanın uğurları dünya azərbaycanlılarının qürur mənbəyinə çevrilib.

Səfir tədbirdə iştirak edən hər kəsi bayrağımızın daim zirvələrdə dalğalanması üçün həmrəylik nümayiş etdirməyə çağırıb.

● Teatrlarımız

# Üçüncü zəng

## Sumqayıt Dövlət Dram Teatrının tamaşalarına gecikməyin



**Teatr mədəniyyətin vacib sahəsidir. Əvvəlki dönəmlərdə axşam işdən çıxan insanlar dincəlmək və mənəvi zövq almaq üçün kinoteatrlara və teatrlara yollanardılar. Film və tamaşalar onlarda xoş əhval yaradardı. Əhəmiyyətinə gəlincə, bu, ayrı mövzunun söhbətidir. Təkcə onu qeyd edək ki, bunların sağlam cəmiyyətin formalaşmasında əvəzi yox idi. Ona görə də bəzən tamaşalara və kinolara bilet tapmaq problemə çevrilərdi.**

İllər keçsə də, öz missiyasını davam etdirən və tamaşaçı rəğbətini qoruyub saxlayan teatrlardan biri də Sumqayıt Dövlət Dram Teatrıdır. Şəhər İkinci Dünya müharibəsindən sonra salınmağa başlasa da, inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Sumqayıt məhz ötən əsrin 70-ci illərində ittifaq əhəmiyyətli sənaye şəhərinə çevrilmişdir. Amma Heydər Əliyev Sumqayıtı təkcə kimya şəhəri kimi görmürdü. Şəhər həm də Azərbaycanın yeni mədəniyyət mərkəzi olmalı idi. Bu istiqamətdə o illər şəhərdə bir neçə mədəniyyət evi və sarayı inşa olundu. Belə mədəniyyət saraylarından biri də Sumqayıt Dövlət Dram Teatrının (həmin dövrdə o, H.Ərəblinskinin adını daşıyırdı) binası idi.

- Həmin illər Sumqayıtda görülən bütün işlər sənaye platformasına hesablanırdı, - deyə teatrın direktoru Samir Şəfiyev bildirir. - Belə bir zamanda Ulu Öndər mədəniyyət ocağının tikintisini vacib saymış və hətta bina üçün yeri də özü seçmişdir. Yarım əsrdən artıq zaman kəsiyində şəhər nə qədər genişlənsə də, yenə də şəhərin mərkəzi kimi bizim teatrın binası qalır. Teatrın ilk baş rejissoru Nəsir Sadıqzadə olmuşdur. 1969-cu ilin martında gənc teatr ilk dəfə öz pərdələrini sumqayıtlıların üzünə açmışdır. Xalq artisti Cənnət Səlimova böyük mütəfəkkir, dramaturq M.F.Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasına quruluş vermişdi. Tamaşanın bəstəkarı isə Emin Sabitoğlu idi.

S.Şəfiyev söylədi ki, Sumqayıt teatrı yaradıcılıq bazası olmuşdur. Respublikada tanınmış sənətkarlardan çoxu ilk dəfə səhnəyə Sumqayıt Dövlət Dram Teatrında çıxmışdır. Rza Əfqanlı, Barat Şəkinskaya, Məlik Dadaşov, Kübra Əliyeva, Ramiz Novruz, Hacı İsmayılov, Vaqif Əliyev, Hicran Hüseynov, Afaq Bəşirqızı, Kazım Abdullayev, Sabir Məmmədov, Əli Nur və başqaları bu teatrda obrazlar qalereyası yaratmışlar.

Direktor maraqlı bir fakta da diqqət çəkdi. Dedi ki, teatrın səhnəsində əvvəllər dünya mütəfəkkirlərinin əsərləri tamaşaya qoyulardı və bu da əsasən rusdilli əhalinin maraq dairəsini təmin edirdi: "Şəhərə səfərə gələn Ulu Öndər yerli dramaturqların əsərlərinin tamaşaya qoyulması təklifini verdi. O, bununla da kifayətlənmədi. Bəzən məşqlərə baxmağa gələr, aktyorların oyununa tamaşa edərdi. Bu da teatrın aktyorlarını həvəsləndirərdi. Məşqlərdən sonra teatrın kollektivi ilə söhbət edən Heydər Əliyev rejissor və aktyorlara tövsiyələrini də verərdi".




Sumqayıt Dövlət Dram Teatrı bu yaxınlarda əsaslı təmir olunub. Bina istifadəyə verildiyi zamandan əsaslı təmir edilməmişdi. Teatr binasının bütün mühəndis-texniki qurğuları tamamilə yenidən qurulub. 500 yerlik tamaşa və 100 yerlik akt salonları ən müasir avadanlıqlarla təchiz olunub, tamaşaları bədii və texniki cəhətdən yüksək səviyyədə təqdim etmək üçün 360 dərəcə hərəkət edən səhnə, müasir akustika, işıqlandırma sistemləri quraşdırılıb. Bunlardan əlavə, teatrın interyerinin daha cəlbedici görünməsi üçün milli memarlıq ənənələrindən geniş istifadə edilib. Bütün xidməti, dekorasiya və qrim otaqları müasir üslubda tərtib olunub, mebellər tətbiqi sənətin qədim növü olan oyma üsulu ilə işlənib hazırlanıb. Teatrın köhnə parket döşəməsi də sökülərək monolit dəmir-beton plitələrlə əvəzlənib, binadakı sütunlar isə mərmərlə üzlənib. Bir sözlə, teatrın 50 il əvvəlki binasından əsər-əlamət qalmayıb.

Sumqayıt Dövlət Dram Teatrı müstəqillik illərində də yetərincə uğur qazanıb, repertuarında daha çox milli mücadilə tarixinə, yurd sevgisinə, hərbi vətənpərvərlik tərbiyəsinə, milli-mənəvi dəyərlərə önəm verib. Yaradıcı heyət Hindistan,Türkiyə, Ukrayna, Türkmənistan, Gürcüstan, Rusiyada qastrollarda olub, tamaşaçıların alqışlarını qazanıb. Yeri gəlmişkən qeyd edək ki, məhz Sumqayıt Dövlət Dram Teatrının səhnəsində ilk dəfə Ulu Öndərin bədii obrazı yaradılıb. Aqşin Babayevin "Xilaskar" əsərinə Xalq artisti Firudun Məhərrəmovun quruluş verdiyi tamaşada Ulu Öndərin bədii obrazını Əməkdar artist Namis Şirməmmədov canlandırıb. Yazıçı Hidayət Orucovun yazdığı, Xalq artisti Firudun Məhərrəmovun quruluş verdiyi "Burdan min atlı keçdi" tamaşası isə Heydər Əliyevin imperiya içində milli mücahidləri qorumasından və dövrün ictimai-siyasi həyatından bəhs edir.

Son bir neçə ildə teatrın repertuarı xeyli genişlənib. Teatr hətta pandemiya dövründə fəaliyyətini dayandırmayıb, onlayn fəaliyyət göstərib, tamaşaçılarına əsərlər təqdim edib.

75 yaşı yenicə tamam olan Sumqayıtın mədəni həyatında teatrın müstəsna yeri var. Şəhər daxilində keçirilən bütün tədbirlərdə teatrın kollektivi yaxından iştirak edir. 44 günlük Vətən müharibəsi mövzusu teatrın repertuarında əhəmiyyətli yer tutur. Teatr kollektivinin həmin günlər Ali Baş Komandana yazdığı məktubda haqq işi uğrunda ədalətli mübarizə dəstəklənmiş və hər bir azərbaycanlının Prezidentin ətrafında sıx birləşdiyi vurğulanmışdır. Teatrın kollektivi Silahlı Qüvvələrimizə mənəvi dəstəyini nümayiş etdirmişdir. "Əsgərə məktub", "Şəhidlər ölməz, Vətən bölünməz" kimi videoçarxlar əsgər və zabitlərimizin döyüş ruhunu yüksəltmişdir. Hafiz Ataxanlının yazdığı, Xalq artisti F.Məhərrəmovun quruluş verdiyi "Missiya" qəhrəmanlıq dramı Sumqayıt teatrının ən uğurlu tamaşaları sırasındadır. Əməkdar incəsənət xadimi Əli Əmirlinin yazdığı və Fuad Cavadzadənin quruluş verdiyi "Xeyir xəbər" tamaşası da sumqayıtlılar tərəfindən maraqla qarşılanmışdır. Sumqayıtın 75 illik yubileyi də teatrın səhnəsində öz əksini tapmışdır. Əli Əmirlinin "Sevgilim Sumqayıt" əsərində bir gəncin taleyi kontekstində Sumqayıtın inkişaf yolu təqdim olunmuşdur.

Quruluşçu rejissor Fuad Kazımov balacalar üçün çox maraqlı bir tamaşa da hazırlayıb. Dyula Urbanın "Şoma və Fruji" əsəri sədaqəti, dostluğu, saf məhəbbəti və mübarizə aparmaq prinsipiallığını təlqin edir. Daha bir uşaq tamaşası isə bu günlər təhvil verilib. "Sehrin gücü" nağıl tamaşasının quruluşçu rejissoru Əməkdar mədəniyyət işçisi Vasif Məmmədov, rejissorları Əməkdar artist İlahə Səfərova və Ləman Məmmədlidir.

Hazırda teatr bir sıra layihələr üzərində çalışır. Qərbi Azərbaycan İcmasının dəstəyi ilə Hidayət Orucovun "İrəvanda nəyim qaldı" əsərinə Xalq artisti Firudin Məhərrəmov quruluş verəcək. Tamaşa gələn il teatrsevərlərin ixtiyarına veriləcək.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***



# Şəfəqləri ilə üfüqü gözəlləşdirən Günəş

*Bazar günü etüdü*

*Günəşin səhər-səhər üfüqdən çıxmasına, Yer üzünə boylanmasına, şəfəqlərini "xəsislik" etmədən hər tərəfə səpələməsinə tamaşa etmisinizmi? Bu gözəl, valehedici mənzərə sizi öz sehrinə salıbmı? Belə bənzərsiz səhnəyə baxa-baxa şirin xəyallara dalmısınızmı? Təbiidir ki, bu sualların yalnız və yalnız uca səslə veriləcək bir cavabı var: bəli! Çünki belə gözəl, cəlbedici, könüloxşayan mənzərəyə tamaşa etməmək, belə bənzərsiz səhnəyə baxmamaq, onun sehrinə dalmamaq mümkün deyil.*

*Nə xoşdur ki, hər gün üfüq Günəşin ılıq, isti şəfəqlərindən güc alıb əl-əlvan rəngə boyanır. Sanki səhər-səhər böyük bir kürəyə od atılır, tonqal qalanır. Bu oddan, bu alovdan bənzərsiz bir mənzərə yaranır. Bəlkə də Günəşin doğmasını, üfüqün bu cür qeyri-adi rəngə boyanmasını, gözəlləşməsini özünə güvənən heç bir rəssam kətan üzərinə olduğu kimi köçürə bilməz. Günəş hər gün şəfəqlərini fırça edib bu gözəlliyi üfüqün çöhrəsinə çəkir. Bununla da insanlara gəlişini, doğuluşunu bildirir.*

*Sanki Günəş bilir ki, insanlar onun yolunu gözləyir, gəlişinin intizarını çəkir, onu salamlamağa tələsir. Düşünürlər ki, Günəş üfüqdən baş qaldırıb Yer üzünə boylanmasa, dünyamız qaranlığa bürünər, təbiət məhvə sürüklənər. Odur ki, hər gün səhər-səhər Günəş üfüqdən boylanan kimi onu salamlayır, üzünə gülür, asta səslə "xoş gəlmisən" deyir.*

*Günəşin hər gün üfüqdən boylanması həyatın yenidən doğuluşudur. Onun doğuluşu bir az körpənin dünyaya göz açmasına da bənzəyir. Günəşin üzündə hamıya yetəcək qədər sevinc olur. Gün ərzində isti şüaları ilə bərabər o, insanlara bir rahatlıq gətirir. Səhər-səhər onun doğuluşuna tamaşa edəndə üzümüz gülür, ürəyimiz açılır. Günəşin bizə verdiyi sevincdən bir-birimizə pay da göndəririk. Paylaşdıqca sevincimiz daha da artır, dünyanın hər tərəfini bürüyür. Elə buna görə də bütün insanlar sevinc payı almaq üçün Günəşin şəfəqləri ilə üfüqə rəng çəkməyini, doğuşunu, boylanışını gözləyir. Xatırlayıram ki, orta məktəbin "son zəng"i çalınan günü bütün məzunlar səhər lap ertədən dənizin qırağına gedib Günəşin üfüqdən çıxmasına tamaşa edərdilər.*

*Yavaş-yavaş qaranlığın qeybə çəkildiyini, səhərin addım-addım yaxınlaşdığını hiss edən Günəş isti əllərini üfüqə uzadıb mehribancasına salamlaşır. Amma üfüqdə çox ləngimir, iti addımlarla göy üzünə çıxır. Sanki axşamdan həsrətini çəkdiyi Yer üzünü tez görməyə tələsir. Bir az göy üzünə yüksəldikdən sonra sürətini azaldır, "yerini" rahatlayandan sonra tələsmədən, asta-asta istiliyini, hərarətini hər yerə səpələyir.*

*Bizə böyük sevinc bəxş edən Zəfərimiz də 44 günlük Vətən müharibəsinin barıt qoxulu, odlu-alovlu "üfüq"ündən Günəş kimi doğdu. Bu doğuş da, bu yüksəliş də ürəklərə sevinc ələdi, çöhrələrə təbəssüm çilədi. Nə qədər ki göy üzündə Günəş var, bu təbəssüm, bu sevinc çöhrələrdən əskik olmayacaq. Zabit və əsgərlərimizin qəhrəmanlığından yoğrulmuş Zəfərimiz də elə Günəş kimi əbədi olacaq. Hər gün Günəşlə bərabər, üfüqdən Yer üzünə boylanacaq, insanlara sevinc və hərarət bəxş edəcək...*

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Mənim sualım var

*Babam 5 il əvvəl rəhmətə gedib. Rayonda onun adına ev və pay torpağı var. Nənəm də həyatda deyil. Anam onun yeganə övladı olub və 7 ildir ki, vəfat edib. Bilmək istəyirəm, illər keçməsinə baxmayaq, nəvələri olaraq (bacı-qardaş) vərəsəliklə bağlı iddia qaldıra bilərikmi və bunun üçün nə etməliyik? Hansı sənədlər lazımdır?*

***Sara Həbibova,***
***Bakı şəhəri***

✓ Təqdim etdiyiniz məlumatlardan göründüyü kimi, miras qoyanın birinci növbədə vərəsəsi olan ananızın həyatda olmaması səbəbilə qardaşınız və siz Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1159.1.3-cü maddəsinə əsasən, miras qoyanın qanun üzrə vərəsələri hesab olunursunuz. Bununla bərabər, qeyd olunmalıdır ki, adıçəkilən məcəllənin 1246-cı maddəsi ilə miras açıldığı gündən altı ay keçdikdən sonra mirasın qəbuluna yol verilmir. Göründüyü kimi, ananızın özü də sağlığında miras açıldıqdan sonrakı 6 aylıq müddət ərzində mirası qəbul etməmişdir. Lakin baba və nənənizin vəfatından sonra yeganə vərəsə olan ananız həmin əmlaklara faktiki sahiblik etmişsə (torpaq və evin açarları ananızda olmuşsa, mütəmadi olaraq ora gedib-gəlmişsə və s.), o, Mülki Məcəllənin 1243.2-ci maddəsinə əsasən, miras əmlakını qəbul etmiş sayılır. Hətta bu hal olmasaydı belə, siz də ananızın vərəsələri olaraq həmin əmlaklara münasibətdə hüquqlarınızı tanıda bilərsiniz. Bunun üçün siz Mülki Məcəllənin 1248.1-ci maddəsinə uyğun olaraq, mirasın qəbul edilməsi üçün müəyyənləşdirilmiş altı aylıq müddətin uzadılması xahişi ilə bağlı miras açıldığı yerin məhkəməsinə (Qeyd: miras qoyanın yaşayış yeri, bu məlum olmadıqda isə mirasın olduğu yer mirasın açıldığı yer hesab edilir) müraciət etməlisiniz. Əgər məhkəmə gecikdirmənin səbəbini üzrlü sayarsa, mirasın qəbul edilməsi müddətinin uzadılması ilə bağlı qərar qəbul edəcəkdir. Bundan sonra həmin qərar əsasında qanun üzrə vərəsəlik haqqında şəhadətnamənin alınması üçün siz mirasın açıldığı yer üzrə notariat ofisinə müraciət etməlisiniz. Zəruri sənədlər aşağıdakılardan ibarətdir: a) Miras qoyanın ölümü haqqında şəhadətnamə; b) Miras qoyanın yaşayış yeri (daimi və ya müvəqqəti qeydiyyatı) haqqında arayış, yaşayış yeri məlum olmadıqda miras əmlakın və ya onun əsas hissəsinin olduğu yer barədə sənəd; c) Vərəsələrin miras qoyanla qohumluq münasibətlərini təsdiq edən (vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı orqanı tərəfindən verilmiş) sənədlər və ya qohumluq münasibətlərinin müəyyən olunması haqqında məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi; d) Vərəsələrin mirasın qəbul edilməsi, ondan imtina olunması və ya vərəsəlik şəhadətnaməsinin verilməsi haqqında ərizələri; e) Qanunla müəyyən edilmiş müddətdə notariusa müraciət olunmadıqda vərəsə tərəfindən əmlaka sahiblik və ya əmlakı idarə etməyə faktiki başlamasını təsdiq edən sənədlər (mirasın açıldığı gündən altı ay ərzində vərəsə tərəfindən mirasa dair borcların ödənilməsi, mirasın qəbul edilməsi, miras əmlaka sahiblik və əmlakdan istifadəyə dair arayışlar, maliyyə və kommunal xidmət haqlarının vərəsə tərəfindən ödənilməsini təsdiq edən qəbzlər və s.); f) Miras əmlak üzərində mülkiyyət hüququnu təsdiq edən sənəd; g) Miras əmlakın tərkibində daşınmaz əmlak olduqda, onun üzərində yüklülüyün və ya həbsin olub-olmaması barədə Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin verdiyi arayış.

Qanun üzrə vərəsəlik şəhadətnaməsini aldıqdan sonra siz daşınmaz əmlakın dövlət reyestrinə müraciət edərək, əmlakın sizin adınıza qeydiyyata alınmasını təmin edə bilərsiniz.

*Zavodda mühəndis işləyirəm. Müharibə veteranı, həm də məcburi köçkünəm. Mənə hansı vergi güzəştləri düşür və əmək məzuniyyəti neçə gün verilməlidir? Qeyd edim ki, yalnız məcburi köçkün kimi vergi güzəşti tətbiq olunur.*

***Ə.Məmmədov,***
***Sumqayıt şəhəri***

✓ Vergi Məcəlləsinin gəlir vergisi ilə bağlı tətbiq edilən güzəştlər məsələlərini tənzimləyən 102.2.7-ci maddəsinə əsasən, müharibə veteranı adı almış şəxsin əməkhaqqından vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində azaldılır. O cümlədən həmin məcəllənin 102.4.5-ci maddəsinə uyğun olaraq, eyni qaydada məcburi köçkünlərin əməkhaqqından vergi tutulmalı olan aylıq gəlir 100 manat məbləğində azaldılır. Bununla belə nəzərə almaq lazımdır ki, məcəllənin 102.7-ci maddəsi ilə işçiyə tətbiq olunan güzəştlərdən biri - məbləğcə ən böyük olanı tətbiq edilməlidir. Belə ki, işəgötürən sizin əməkhaqqınızı məcəllənin 102.2.7-ci maddəsini (müharibə veteranı olmağınız amilini) əsas götürməklə hesablamalı idi. Yəni həm müharibə veteranı, həm də məcburi köçkünlüyə görə güzəştlər cəm halında tətbiq oluna bilməz. Bu baxımdan əgər siz qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almısınızsa, bu statusun müəyyən etdiyi güzəşt daha çox (400 manat) olduğu üçün iş yeriniz sizə münasibətdə məcəllənin 102.2.7-ci maddəsini rəhbər tutmaqla, müharibə veteranına şamil olunan güzəşti tətbiq etməli idi.

Məzuniyyətin müddətləri məsələsinə gəldikdə isə qeyd olunmalıdır ki, Əmək Məcəlləsi müharibə veteranı və ya məcburi köçkün statusuna malik olmasına görə hər hansı əlavə məzuniyyət müddəti müəyyən etməmişdir. Sizə yalnız Əmək Məcəlləsinin 116-cı maddəsinə müvafiq qaydada, əmək stajınıza görə əlavə məzuniyyət verilə bilər. Belə ki, qeyd olunan maddəyə əsasən, sizə əmək stajınız 5-10 il aralığındadırsa - 2 təqvim günü, 10-15 il aralığındadırsa - 4 təqvim günü, 15 ildən çoxdursa - 6 təqvim günü müddətində əlavə məzuniyyət verilməlidir.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**




# Ən sürətli mikrorobot

**Çinin Beihang Universitetinin tədqiqatçılarının hazırladıqları mikrorobot sürət və bacarığı ilə rekord qırıb. Cəmi 15 mm uzunluğunda və 2 qram ağırlığında olan robot dünyanın ən sürətli mikrorobotlarından biri seçilib.**



İrəli və geri hərəkət qabiliyyətinə görə unikal olan böcək formasındakı robotun hərəkət mexanizmi elektromaqnit ötürücü sisteminə əsaslanır. Daxilindəki maqnit bobin və birləşdirici mexanizm alternativ cərəyan vasitəsilə titrəmə yaradır. Bu titrəmələr robotun irəli və geri hərəkət etməsinə şərait yaradır. Hərəkət istiqaməti isə titrəmə tezliyinin dəyişdirilməsi ilə idarə olunur və robot istiqamətini çevirmədən hərəkət edir. Çəkisindən 32 dəfə ağır yük daşıya bilən robot şüşə, qum və hətta əyri borular kimi müxtəlif səthlərdə problemsiz hərəkət edə bilir.

Tədqiqatçılar robotun bacarıqlarını daha da inkişaf etdirmək üçün çalışmaları sürətlə davam etdirirlər. Növbəti mərhələdə cihazın avtonom naviqasiya və ətraf mühiti dərketmə qabiliyyətləri ilə təchiz olunması planlaşdırılır.

## "Meta" nüvə enerjisinə yönəlir

**"Feysbuk", "Vatsap", "İnstaqram" və "Mesencer" kimi sosial media platformalarının ümumi gündəlik istifadəçi sayı 3,29 milyard nəfərdir. Bu platformaların hamısı məlumat mərkəzlərində fəaliyyət göstərir.**

Onları süni intellekt ilə birləşdirməyə çalışan "Meta" bu məqsədlə Kiçik Modulyar Reaktor (SMR) adlanan reaktorlar və ya daha böyük nüvə reaktorları sahəsində təcrübəli iş ortaqları axtardığını bildirib. Şirkət nüvə elektrik stansiyası layihələrinin coğrafi mövqeyi ilə bağlı heç bir məhdudiyyət qoymadığını və bu məsələdə çevik olduğunu qeyd edib. "Meta" nüvə enerjisindən istifadəsini həm texnoloji yeniliklərin dəstəklənməsi, həm də iqtisadi inkişaf baxımından mühüm addım kimi qiymətləndirir.



"Meta" nüvə enerjisinə yönələn yeganə texnologiya nəhəngi deyil. "Quql" ABŞ-də bir neçə reaktor tikmək üçün müqavilə imzalayıb və bu layihələrin 500 meqavatlıq nüvə enerjisi gücü təmin edəcəyi gözlənilir. "Microsoft" isə ABŞ-dəki "Three Mile Island" nüvə elektrik stansiyasını yenidən işə salaraq süni intellekt layihələrini dəstəkləməyi planlaşdırır.

## Min illərlə çalışa bilən batareya

**İngilis tədqiqatçıları dünyanın ilk karbon-14 almaz batareyasını hazırlayıblar. Ən sərt materiallardan olan almazla əhatə edilən batareya radiasiyanı təhlükəsiz şəkildə toplayaraq enerji istehsal edir. Karbon-14 almaz mühafizəsi vasitəsilə udulan qısa məsafəli radiasiya yayaraq aşağı səviyyədə elektrik istehsal edir.**



Batareya günəş panelləri kimi işləyir, lakin işığı elektrikə çevirmək əvəzinə radioaktiv parçalanma nəticəsində yaranan və sürətlə hərəkət edən elektronlardan istifadə edir. Karbon-14-ün yarı ömrü 5700 il olduğundan batareyanın nəzəri olaraq min illərlə işləmək imkanı var. Çoxfunksionallığı ilə seçilən batareya ənənəvi enerji mənbələrinin qeyri-praktik olduğu müxtəlif mühitlərdə və cihazlarda istifadə edilə bilər.

Almaz batareyalarında istifadə olunan karbon-14 nüvə reaktorlarının yan məhsulu olan qrafit bloklarından əldə edilir. Beləliklə, radioaktiv materialın təkrar istifadəsini təmin edərək nüvə tullantılarının azalmasına töhfə verir, həmçinin onların saxlanması problemini həll etmiş olur.

## Məlumatları milyon illər yaddaşında saxlayan texnologiya

**Rəqəmsal dövr böyükhəcmli məlumat daşıyıcılarının yoxluğu problemi ilə qarşılaşır. CD və USB daşıyıcılar kimi ənənəvi variantlar bu işin öhdəsindən artıq gələ bilmirlər.**

Buna görə də Çin Elm və Texnologiyalar Universitetinin tədqiqatçıları məlumatların almazlarda milyon illər ərzində saxlanması texnologiyasını hazırlayıblar. Sözügedən texnologiya almazın atom strukturunda olan mikroskopik boşluqların istifadəsinə əsaslanır. Bu boşluqlar almazın lazer impulsları ilə şüalanması halında formalaşaraq məlumatları işıqlanma dəyişimləri üzərindən kodlaşdırırlar.

Alimlər bu texnologiya ilə məlumatların rekord sıxlıqda saxlanmasına nail olublar. Söhbət ümumilikdə 1.85 TB həcmdə məlumatlardan gedir. Məlumatların yazılması sürəti isə 200 femtosaniyə (0,0000000000002 saniyə) təşkil edib.

Yeni texnologiya hələ kütləvi istifadə üçün hazır olmasa da, gələcəkdə əlçatan olacaq.

# İnsan beyninin təkamül prosesi

**Britaniyalı alimlər müasir analitik üsullardan istifadə edərək müəyyənləşdiriblər ki, insan beyninin inkişafı kəskin sıçrayışlarla baş verməyib. Təhlil insan təkamülünün 7 milyon ilini əhatə edib.**



Alimlərin sözlərinə görə, insan beyninin ölçülərinin artması tədricən baş verib və bir növdən digərinə keçidlə bağlı inqilabi dəyişikliklərdən daha çox növ daxilində "daxili funksiya"ların təkmilləşməsinə bənzəyib. Bu nəticə beyin inkişafının böyük təkamül sıçrayışları ilə bağlı olduğunu iddia edən əvvəlki nəzəriyyələri şübhə altına alır.

Tədqiqat göstərib ki, müxtəlif növlərin bədən və beyin ölçüləri arasında əlaqə var, lakin bir növ daxilində bu əlaqə o qədər də qabarıq deyil. Bu kəşf təkamül proseslərinin mürəkkəbliyini vurğulayır. Burada təkcə fiziki parametrlər deyil, həm də daha mürəkkəb mexanizmlər mühüm rol oynayır.

## Süni intellektli kamera 3800 avtomobilə yanlış cərimə yazıb

**Nyu Yorkda həyata keçirilən layihə çərçivəsində bələdiyyə avtobusları süni intellekt dəstəkli kameralarla təchiz edilib.**

Məqsəd avtobus dayanacaqlarına park edən avtomobilləri müəyyənləşdirib onlara cərimə tətbiq etmək idi. Lakin işlər planlaşdırıldığı kimi getməyib, süni intellekt dəstəkli kameralar 3800 səhv cərimənin yazılmasına səbəb olub.

Nyu York Bələdiyyəsi bu cərimələrin ləğv olunduğunu elan edib. Süni intellekt dəstəkli kameralar ilk mərhələdə uğursuz olsalar da, layihə dayandırılmayıb, proqram təminatındakı problemlər aradan qaldırılıb.

## İnsanı təqlid edən süni intellekt sistemi təqdim olunub

**"Google DeepMind" tədqiqatçıları 2 saatlıq söhbətdən sonra insan şəxsiyyətini təqlid edən AI sistemi hazırlayıblar. Müsahibələr zamanı əldə olunan məlumatlar təhlil edildikdən sonra şəxsin cavab vermə tərzini və davranışlarını simulyasiya edən "rəqəmsal şəxsiyyət" yaradılır.**

Aparılan testlərdə sistemin verdiyi cavabların real şəxsin cavabları ilə 85 faiz uyğun olduğu müəyyən edilib.

Yeni texnologiyanın xüsusən sosioloji araşdırmalar üçün inqilabi bir vasitə ola biləcəyi bildirilir. Beləliklə, məlumat toplama və təhlil proseslərinin daha sürətli və iqtisadi olacağı bildirilir. Yəni sosial tendensiyaları başa düşmək və ya fərdi davranış modellərini öyrənmək üçün daha çox araşdırmanın aparılmasını mümkün edir.

Tədqiqatçılar bu cür sistemləri "rəqəmsal agentlər" kimi təsvir edirlər. Mövcud süni intellekt köməkçilərindən fərqli olaraq, bu agentlər daha mürəkkəb və insana xas davranışları simulyasiya edə bilirlər. Bu texnologiyanın imkanları hələ araşdırılmaqda olsa da, artıq insan davranışlarını anlamaq və yenidən qurmaq üçün süni intellektin nə qədər irəli gedə biləcəyi barədə təsəvvür yaradır.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

**Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Söhrab Elcan oğlu Abdullayevin adına verilmiş 21.07.2020-ci il tarixli C № 061676 nömrəli diplomun Əlavəsi itdiyi üçün etibarsız sayılır.**

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin kollektivi iş yoldaşları

**NAZİM MAHMUDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4233
Sifariş 2792

Qiyməti 60 qəpik